

# BÖYÜK DƏHLİZ REALLAŞIR

Zəngəzur dəhlizi Üçtərəfli Bəyannamənin fokuslandığı əsas məqamdır. Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında ilkin sülh sazişi qonşu İranda, Rusiyada həyəcan təbili çaldı.

İran rejimi Azərbaycanın Zəngəzur dəhlizi layihəsi və onun ABŞ tərəfindən dəstəklənməsinə dair təhdidedici xəbərdarlıqlar edir. Rusiyanın da buna qarşı çıxacağına ümid bəsləyir.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



16 AVQUST ŞƏNBƏ 2025 № 31 (4232) Qiyməti - 60 qəpik www.kaspi.az



## AVROPANIN MÜSƏLMAN QORXUSU

Avropada milyonlarla müsəlmanın həyatına təsir edən narahatedici islamofob meyillərin artımı müşahidə olunur. Ayrı-seçkilik, nifrət nitqi, fiziki zorakılıq artdıqca, bir çoxları bu cür hallarla mübarizə üçün nə edilə biləcəyini soruşur.

SƏHİFƏ 5-də



## ENERJİ TƏLƏBATINDA REKORD GÖSTƏRİCİ

Elektrik enerjisinə olan tələbatımız rekord həddə çatıb. Ekspertlərin fikrincə, bu, tək əhalinin enerji sərfiyyatı ilə bağlı yox, həm də iqtisadi artım və sənaye inkişafı ilə əlaqədardır. Lakin tələbatın artmasının mənfi tərəfləri də var.

SƏHİFƏ 13-də



## REKLAMI DA AZALIB, SATIŞI DA

Elektromobillərlə bağlı mövcud durum bəzi suallar yaradır. Həm təbliğatda, həm də satışda müəyyən durğunluq müşahidə edilir. Bəziləri artıq elektromobil mifinin sona çatdığı qənaətindədir.

SƏHİFƏ 14-də

### SABİT BÖLGƏ HƏR KƏS ÜÇÜN UNİKAL İMKANLAR YARADIR



# CƏNUBİ QAFQAZDA SÜLHÜN AÇDIĞI QAPILAR

Cənubi Qafqazda əldə olunacaq sülh unikal təcrübə kimi nəzərdən keçirilməlidir. Bu imkanlar Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti, liderliyi və qətiyyəti sayəsində mümkün olub.

**BU PROSESİN ƏN ÇOX QAZANANLARI**

Təbii ki, bu prosesin ən çox qazananı bir-biri ilə uzun illərdir müharibə şəraitində yaşayan, bütün sahələrdə əlaqələri tamamilə sıfırlanmış Azərbaycan və Ermənistan olacaq. Bu, Azərbaycan üçün hərbi-siyasi sahədə əldə edilmiş uğurların diplomatik və beynəlxalq müstəvidə rəsmən tanınması deməkdir. Real sülhə ən çox ehtiyacı olan isə Ermənistandır.

**BÖLGƏDƏKİ MÖVCUD REALLIĞIN MEMARI**

Mövcud perspektiv imkanların yaradılmasının əsas memarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Tərəflərin sülh və sabitlik məsələsində uzlaşmasının hər kəsin xeyrinə olacağını Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib.

SƏHİFƏ 3-də

"Atam demişdi ki, bilirəm, 62 il yaşayacağam"

## "AĞLIMIZA GƏLMƏZDİ Kİ, ONU BELƏ TEZ İTİRƏCƏYİK"



Xalq yazıçısı Yusif Səmədoğlunun xatirə günüdür. Görkəmli ictimai xadim 16 avqustda həyatla vidalaşıb. Yazıçının 90 illik yubileyi də məhz bu ilin 25 dekabrına təsadüf edir. Xatirə günü ərəfəsində "Kaspi" qəzetinin "Doğmalar" rubrikası üçün Yusif Səmədoğlunun qızı Humay Vəkilova ilə söhbətləşdik.

SƏHİFƏ 8-9-da



## AZƏRBAYCANA VERİLƏN YÜKSƏK DƏYƏR

ABŞ Prezidenti Donald Trampın 907-ci düzəlişin ləğvi ilə bağlı qərarı rəsmi olaraq dərc edilib. Ağ Ev rəhbəri bu qərarını Azərbaycanın ABŞ və dünya üçün mühüm əhəmiyyətə malik ölkə olması ilə əsaslandırıb.

SƏHİFƏ 2-də



## BUĞDA EHTİYATLARI MƏQSƏDLİ ARTIRILIR

Azərbaycan 2025-ci ilin yanvar-iyun aylarında xarici ölkələrdən buğda idxalını 56% artırıb. Ekspertlər deyirlər ki, idxalın artması daxili istehsalın azalması və ya istehlakın kəskin yüksəlməsi kimi dəyərləndirilməməlidir.

SƏHİFƏ 7-də



## VAKANT YERLƏR HARADADIR?

Müəllimlərin işə qəbulu üzrə müsabiqədə yüksək nəticə göstərən namizədlər vakant yerlərin azlığından və ya heç olmamasından şikayət edirlər. Müvafiq qurum isə prosesin ilboyu davam edəcəyini bildirir.

SƏHİFƏ 6-da



Kolatağ və Vəngli sakinlərini qarşılayır

SƏHİFƏ 10-da



Əldə yerli məhsul, süfrədə idxal

SƏHİFƏ 12-də



Özəl daşıyıcılar subsidiya istəyir

SƏHİFƏ 11-də



Şəkər xəstələrinin qida seçimi problemi

SƏHİFƏ 15-də



"Qarabağ" artıq pley-off mərhələsində

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## Azərbaycan Ukraynaya humanitar yardım göndərib

Azərbaycanın Ukraynaya humanitar yardım məqsədilə nəzərdə tutduğu elektrik avadanlıqlarından ibarət yükün növbəti hissəsi Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb. "Report" xəbər verir ki, yardımın göndərilməsini Prezident İlham Əliyevin Sərəncamına əsasən, Energetika Nazirliyi təmin edir. Məlumata görə, humanitar yükün tərkibinə ümumilikdə 90 min metrə yaxın elektrik kabelləri və naqillər, həmçinin 25 ədəd generator və 7 dəst transformator daxildir. Ukraynada davam edən müharibədən zərər görmüş bölgələrin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpasına dəstək məqsədilə göndərilən bu avadanlıqların ilk hissəsi 10 yük avtomobilindən ibarət karvanla yola salınıb. Ukrayna tərəfinin müraciətləri əsasında təşkil edilən və ümumi dəyəri 2 milyon ABŞ dolları olan sözügedən yardımın növbəti hissəsinin də yaxın günlərdə yola salınması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı ilə bağlı humanitar yardımlar göndərib. Hazırkı müharibə şəraiti ilə əlaqədar olaraq, Azərbaycanın Ukraynaya göstərdiyi ümumi humanitar dəstək, o cümlədən bərpa və yenidənqurma yönümlü yardımların ümumi dəyəri artıq 44 milyon ABŞ dollarını keçib.



## "Sülh yalnız Tramp dövründə əldə edilə bilərdi"

"Azərbaycan və Ermənistan liderləri Vaşinqtonda tarixi saziş imzalayıblar, belə bir hadisə yalnız Donald Trampın administrasiyası dövründə baş verə bilərdi, çünki o, ideoloji məqsədlər güdmür və sülhməramlı və danışıqçı kimi fəaliyyət göstərir".

"Report"un məlumatına görə, bunu Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov Britaniya nəşri "GB News"ə müsahibəsində bildirib.

"Mənə elə gəlir ki, Tramp səmimi şəkildə münaqişələri sona çatdırmağa çalışır. Əslində, o, sülhməramlı və sövdələşmə mütəxəssisidir və bu, başqalarının istədiyindən çox fərqlənir", - deyə E.Süleymanov bildirib. Diplomatın sözlərinə görə, Cənubi Qafqazda vəziyyətin nizamlanmasında vasitəçi kimi çıxış etməyə çalışan Ağ Evin bütün keçmiş liderləri Azərbaycan və Ermənistan arasındakı münaqişənin başa çatmasını əsas məqsəd kimi qoymayıblar. Onlardan fərqli olaraq, Tramp komandasının yanaşması real nəticəyə yönəlib.

# AZƏRBAYCANA VERİLƏN YÜKSƏK DƏYƏR



**ABŞ Prezidenti Donald Trampın 907-ci düzəlişin ləğvi ilə bağlı qərarı rəsmi olaraq dərc edilib. Ağ Ev rəhbəri bu qərarını Azərbaycanın ABŞ üçün mühüm əhəmiyyətə malik ölkə olması, həmçinin beynəlxalq terrorla mübarizədə mühüm rol oynaması ilə əsaslandırıb.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

ABŞ Federal Hökumətinin rəsmi jurnalı olan "Federal Register"də Prezident Donald Trampın 2025-ci il avqustun 8-də imzaladığı "Azadlığa Dəstək Aktı"na 907 saylı düzəlişin fəaliyyətinin dayandırılması haqqında Memorandum dərc edilib. Sənəddə federal qurumlar və prezident tərəfindən qəbul edilmiş qaydalar, bildirişlər və digər məqamlar yer alıb.

### QƏRAR KONQRESƏ GÖNDƏRİLƏCƏK

"Amerika Birləşmiş Ştatlarının Konstitusiyası və qanunları, o cümlədən 2002-ci il Xarici Əməliyyatların Maliyyələşdirilməsi, İxrac Maliyyələşdirilməsi və Əlaqəli Proqramlar Aktının II bölməsi (107-115 saylı Qanun) tərəfindən mənə verilən səlahiyyətlər əsasında, bununla Azərbaycana qarşı Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin (102-511 saylı Qanun) dayandırılmasının

- Birləşmiş Ştatların beynəlxalq terrorizmə qarşı mübarizə səylərini dəstəkləmək üçün zəruri olduğunu;
- Birləşmiş Ştatların Silahlı Qüvvələrinin və ya beynəlxalq terrorizmə qarşı mübarizədə koalisiya tərəfdaşlarının döyüş hazırlığını dəstəkləmək üçün zəruri olduğunu;
- Azərbaycanın sərhəd təhlükəsizliyi üçün vacib olduğunu;
- Ermənistan və Azərbaycan arasında sülh nizamlanması üzrə danışıqlar üçün cari səylərə xələl gətirməyəcəyini və ya mane olmayacağını və Ermənistana qarşı hücum məqsədləri üçün istifadə edilməyəcəyini müəyyən edir və təsdiq edirəm.

Müvafiq olaraq, bu qərarla mən Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin müddəalarının tətbiqindən imtinanı uzadıram", - sənədin mətnində deyilir.

Tramp ABŞ-nin Dövlət katibi Marko Rubioya bu qərarı "Federal Reyestr"də dərc etməyi və bu qərarı və izahedici qeydi Konqresin müvafiq komitələrinə göndərməyi tapşırıb.

## Baydenin ikiüzlü davranışı

Qeyd edək ki, bu düzəlişin dondurulması barədə sənəd Prezident İlham Əliyevin keçən həftə ABŞ-yə səfəri zamanı Prezident Donald Trampla apardığı müzakirələr zamanı imzalanıb. Ağ Ev rəhbəri sələfindən fərqli olaraq, Bakının beynəlxalq terrorizmə qarşı mübarizədə, ABŞ ilə müttəfiqlik münasibətlərində sərgilədiyi mövqeyi yüksək qiymətləndirir. Azərbaycanın bu kimi fundamental əhəmiyyət daşıyan məsələlərdə mühüm rol oynadığını Tramp administrasiyası özü də etiraf edir. Xatırladaq ki, Co Baydenin dönəmində Əfqanıstandan ABŞ qüvvələrinin çəkilməsi ilə ABŞ prezidentləri tərəfindən uzun illər 907-ci düzəlişin dondurulması ənənəsinə son qoyulmuşdu. Belə demək mümkündürsə, əvvəlki administrasiya Azərbaycanın Əfqanıstan və digər beynəlxalq missiyalardakı rolunu gözardı edərək, erməni lobbisinin birbaşa təsiri ilə bu addımı ataraq, Vaşinqton-Bakı münasibətlərinə ciddi zərər vurmuşdu. İndi isə Əliyev-Tramp əlaqələri dövlətlərarası münasibətlərdəki mənfi tendensiyaların ardıcıl olaraq aradan qaldırılması istiqamətində mühüm rol oynayır.

## Siyasi və rəmzi məna daşıyan imtina

Yeri gəlmişkən, hələ ABŞ-də olanda Prezident İlham Əliyev Azərbaycan mediasına müsahibəsində bu məsələyə xüsusi diqqət ayırmışdı. "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni



lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir", - dövlət başçısı bildirib. İlham Əliyev qeyd edib ki, Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var: "Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, artıq ədalətsizliyin aradan qalxdığını göstərir".

Göründüyü kimi, ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə artıq rəsmən başlamış sayılır. Bu müstəvidə maneə yarada biləcək məqamlar isə qarşılıqlı şəkildə ardıcıl olaraq ortadan qaldırılmaqdadır.



# CƏNUBİ QAFQAZDA sülhün açdığı qapılar

Cənubi Qafqazda əldə olunacaq sülh unikal təcrübə kimi nəzərdən keçirilməlidir. Bu imkanlar Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti, liderliyi və qətiyyəti sayəsində mümkün olub.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın iştirakı ilə üçtərəfli Zirvə görüşü və imzalanan sənədlər Cənubi Qafqazda uzun illərdir bağlı qalan sülh qapılarını yenidən açdı. Lakin görüşün nəticələri ilə bağlı cərəyan edən proseslər sülh müstəvisində süni maneələr yaratmağa çalışanların varlığını bir daha ortaya qoydu. Bu dəfə sülh və sabitliyin bölgə və dünya üçün doğuracağı nəticələrə əks prizmadan yanaşacağıq. Cənubi Qafqazda sülh bölgə dövlətlərinə, dünyaya nə verəcək?

### SÜLHDƏN ƏN ÇOX QAZANANLAR

Təbii ki, bu prosesin ən çox qazananı bir-biri ilə uzun illərdir müharibə şəraitində yaşayan, bütün sahələrdə əlaqələri tamamilə sıfırlanmış Azərbaycan və Ermənistan olacaq. Bu, Azərbaycan üçün hərbi-siyasi sahədə əldə edilmiş uğurların diplomatik və beynəlxalq müstəvidə rəsmən tanınması deməkdir. Bakı həm də yaratdığı yeni reallıqlar fonunda sülhü əldə etməklə dünyada özünə qarşı istifadə edilən erməni kartını tamamilə zərərsizləşdirir.

Real sülhə ən çox ehtiyacı olan isə Ermənistandır. Bunu İrəvanın siyasi rəhbərliyi hər fürsətdə dilə gətirir. Regiona sülh gələrsə, Ermənistan ən azından 30 illik təcriddən çıxar, kommunikasiyaları açılar, beynəlxalq və regional layihələrin iştirakçısı olmaq imkanını əldə edər. Təbii ki, bunun üçün İrəvan ilk növbədə sülh yolunda ən böyük maneə olan Konstitusiyasında yer almış Azərbaycana qarşı ərazi iddialarını ortadan qaldırmalıdır.

### RUSİYA ÜÇÜN TƏHLÜKƏSİZLİK ZONASI

Cənubi Qafqazda baş verənləri özü üçün prioritet elan edən Rusiyanın sərgilədiyi mövqe də bu zamana qədər suallar doğurub. Çünki Rusiya üçün Qafqazda münaqişə bölgədə geosiyasi varlığının təminatı idi. Bəs sülh Kremlə nə gətirəcək? Məlumdur ki, Moskvanın ən böyük tezisi bölgə dövlətlərinin NATO-ya qoşulması təhlükəsi və ya Qərbin burada hərbi mövcudluğu amilidir. Lakin Kremldə nəzərə almalıdırlar ki, sülh şəraitində Ermənistandakı Avropa İttifaqının casus fəaliyyətini yerinə yetirən müşahidə missiyasının varlığına son qoyulacaq. Bölgə dövlətlərinin NATO-ya nə zamansa üzv olacağı ehtimalı da çox aşağıdır. Beləliklə, Cənubi Qafqaz inkişaf etmiş və sabit bölgə olaraq, Rusiyanın Şimali Qafqaz kimi təhlükəli regionuna yaxın cənub sərhədlərində sabitlik demək olacaq.



## TEHRAN ÜÇÜN HƏYATİ ƏHƏMİYYƏT KƏSB EDİR

İrana gəldikdə isə bu ölkə üçün Cənubi Qafqazın mühüm əhəmiyyət daşıdığını Tehran hər fürsətdə bəyan edir. Cənub qonşumuzun da regionda münaqişənin varlığı ilə bağlı mövqeyi bu zamana qədər Rusiyanın yanaşmasından elə də ciddi fərqlənməyib. Lakin Qərb təhdidinin real olmaması, Tehranın hər zaman ehtiyat etdiyi Rusiyanın bölgəyə hərbi müdaxilə ehtimalının ortadan qalxmasının başlıca şərti Cənubi Qafqazda sülhün və iqtisadi inkişafın, sabitliyin nə dərəcədə təmin olunacağından asılıdır. Çünki sabit və inkişaf etmiş bölgədə kənar və təxribatçı qüvvələrin fəaliyyət imkanlarının məhdudluğu artıq bir aksiomdur. Sanksiyalardan ciddi şəkildə əziyyət çəkən İranın inkişaf edən Cənubi Qafqazla ticari-iqtisadi münasibətlər qurması da həyati əhəmiyyət kəsb edir.

## TÜRKİYƏ İLƏ BAĞLI HƏR ŞEY AYDINDIR

Bölgədə varlığı əhəmiyyətli dərəcədə hiss edilən digər oyunçulara gəldikdə isə Türkiyə ilə bağlı hər şey aydındır. Bakı-Ankara sarsılmaz ittifaqı həm də bütün türk dünyası üçün örnəkdir. Sabit Cənubi Qafqaz türk birliyi qarşısında unikal imkanlar açır.

Son illərdə Azərbaycanla strateji əlaqələrini genişləndirən, Bakı ilə münasibətlərə xüsusi diqqət ayıran Çinə gəldikdə, Cənubi Qafqaz Pekin üçün Qərbə doğru alternativ tranzit yoludur. Orta Dəhlizin ən mühüm halqası olan bölgəmiz Pekinin "Bir kəmər, bir yol" layihəsində də özünəməxsus yer tutur. Təbii ki, bu siyasət layihənin reallaşdığı bütün coğrafiyada, o cümlədən Cənubi Qafqazda sülh və sabitliyin mövcudluğunu tələb edir.

Avropa İttifaqına (Aİ) gəldikdə, Cənubi Qafqaz Brüssel üçün həm alternativ dəhliz, həm də zəngin enerji ehtiyatlarına çıxış deməkdir. Hər iki sahə mövcud beynəlxalq konyunkturada Aİ üçün müstəsna əhəmiyyət kəsb edir. İstər Çinlə tranzit əlaqələrin genişləndirilməsi, istərsə də Mərkəzi Asiyanın zəngin resurslarına çıxış imkanı məhz Cənubi Qafqazdan keçir. Daha doğrusu, Azərbaycan və Ermənistan arasında ədalətli, hərtərəfli sülhün təmin olunmasından. Bu baxımdan, sabit bölgə Aİ üçün də hər mənada ən ideal seçimdir.

### BU REALLIĞIN MEMARI AZƏRBAYCAN PREZİDENTİDİR

Təbii ki, sadaladığımız amillər, mövcud perspektiv imkanlarının yaradılmasının əsas memarı Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti, liderliyi və qətiyyəti sayəsində mümkün olub. Tərəflərin sülh və sabitlik məsələsində uzlaşmasının hər kəsin xeyrinə olacağını Azərbaycan Prezidenti dəfələrlə bildirib. 30 illik işğala son qoyulması, separatizmin kökünün kəsilməsi, Ermənistanda sülh prosesinin irəlilədilməsi məhz müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Vətən müharibəsində xalqının və ordusunun birliyi, həmrəyli ilə qazandığı qələbənin nəticəsidir. Bu qələbə və ondan sonra rəsmi Bakının dərhal sülh prosesinə start verməsi həm də dünya üçün bir nümunədir. Cənubi Qafqazda maneələrin aradan qaldırılması ilə əldə olunacaq sülh digər münaqişə ocaqlarının söndürülməsi istiqamətində də unikal təcrübə hesab edilir.

# BÖYÜK DƏHLİZ REALLAŞIR

Zəngəzur dəhlizi Üçtərəfli Bəyannamənin fokuslandığı əsas məqamdır. Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında ilkin sülh sazişi qonşu İranda, Rusiyada həyəcan təbili çaldı.



AQŞİN KƏRİMOV

Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyan Vaşinqtonda keçirilmiş görüşə dair Birgə Bəyannaməni imzalayıblar.

Bəyannamə ilə hər iki tərəf hərbi əməliyyatları dayandırmağa, bir-birinin ərazi suverenliyini rəsmi olaraq tanımağa, həmçinin diplomatik və iqtisadi əlaqələri açmağı hədəfləyir. Azərbaycanı Ermənistandan keçməklə Naxçıvan Muxtar Respublikası ilə əlaqələndirmək üçün Zəngəzur dəhlizinin (Tramp yolu) yaradılmasının elan edilməsi üçtərəfli Bəyannamənin fokuslandığı əsas məqamdır. Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında ilkin sülh sazişi qonşu İranda, Rusiyada həyəcan təbili çaldı. Çünki o, Ermənistan-İran sərhədi boyunca ABŞ-nin nəzarəti altında olan tranzit dəhlizini əhatə edir.

### İRAN ƏNƏNƏNİ POZMADI, AMMA...

Yaxın Şərqdə düşdüyü geosiyasi boşluqlar, üzləşdiyi strateji itkilər səbəbilə İranın maraqları assimetrik olaraq Cənubi Qafqazda da ipdən asılı qalıb. Bununla belə, İran Azərbaycanın Zəngəzur dəhlizi layihəsi və onun ABŞ tərəfindən dəstəklənməsinə dair təhdidedici xəbərdarlıqlar edir. Rusiyanın da buna qarşı çıxacağına ümid bəsləyir. İranın xəbərdarlıqlarına dair bir neçə məlumat:

Avqustun 9-da İran Xarici İşlər Nazirliyi razılaşmanı alqışladı, lakin ABŞ-nin Ermənistanla sərhəddə mövcudluğuna qarşı xəbərdarlıq etdi. Nazirlik bəyanatında Tehranın regiondakı hadisələri izlədiyini və həm Bakı, həm də İrəvanla əlaqə saxladığını bildirib, əlavə edib: "Şübhəsiz ki, Qafqaz regionunda sülh və sabitlik bütün region ölkələrinin maraqlarına xidmət edir". İran XİN həmçinin regional təhlükəsizlik və sabitliyə xələl gətirə biləcəyini düşündüyü "Tramp yolu"na istinad edərək, "xüsusən də ortaq sərhədlər yaxınlığında hər hansı formada xarici müdaxilənin mənfi nəticələrinə" qarşı xəbərdarlıq edib. İranın Ali Rəhbəri Seyid Əli Xameneiyə xarici siyasət məsələlərində tövsiyələr verən Xarici Əlaqələr üzrə Strateji Şurada işləyən Əli Baqeri-Kani təkid etdi ki, Tehran tranzit marşrutunu asanlıqla gözardı etməyəcək. O, həmçinin Zəngəzur dəhlizinin dövlətlərə, o cümlədən Rusiyaya "birbaşa və dolayı təsirləri" olacağını xəbərdar etdi.



## Pezeşkianın bəyanatı daha yumşaqdır

İran Prezidenti Məsud Pezeskian avqustun 11-də Ermənistanın Baş naziri Nikol Paşinyanla telefon danışığı zamanı xəbərdarlıq edib. Hərçənd ki, Pezeşkianın bəyanatı daha yumşaq mesajdır və bu, İranda mötədil düşərgə ilə ultramühafizəkar qruplar arasında Azərbaycana yanaşmada ifadə olunan fikir ayrılıqlarına dəlalət edir. Pezeskian avqustun 18-də Ermənistana səfəri zamanı İranın klassik mövqeyi ilə onun xarici siyasətdə praqmatik xətti müdafiə edən konsepsiyasının hibridi barədə müzakirələr aparacağı gözləniləndir. Ancaq İran radikal ideoloji və strateji maraqlarını ön səflərə çəkmək istəyir və bunun liberal seqmentin ideyalarının üzərində tutmağa çalışır.

### TEHRAN RUSİYANIN YARDIMINA ARXALANIR

Başqa yandan isə İran Zəngəzur dəhlizinə qarşı müqavimət oxunda Rusiyanın yardımına arxalanır.

Bu amil İranın regionda hüquq-müqavilə bazasına əsasən Rusiyanı müttəfiq kimi xarakterizə etmək cəhdidir. Lakin Rusiya İrana həqiqi müttəfiqlik əlaqələri nəzərindən baxmır. Bu o deməkdir ki, Moskva Tehranla eyni məntiqdən çıxış etməyəcək.

Bu, strateji rəqabətin fərqliliklərindən qaynaqlanır, yəni Rusiya ABŞ ilə qarşıdurma xətlərində İranın məntiqini bölüşmür. Həm də ona görə ki, Rusiya və İranın Cənubi Qafqazda fərqli maraqları əvvəllər iki ölkə arasında gərginlik mənbəyi kimi çıxış edirdi. İranın Zəngəzur dəhlizi layihəsinə qarşı çıxmasına baxmayaraq, Rusiya bu dəhlizin tikintisini dəstəkləyib. Üstəlik, İranın Rusiyaya təklif etdiyi sövdələşmə Tehranın xaricdə güc nümayiş etdirmək qabiliyyətinin azaldığı bir vaxtda Moskvaya sərfəli variant kimi gəlməyəcək. Buna baxmayaraq, Rusiya ilə İranın Azərbaycanın strateji maraqlarına qarşı qısamüddətli dövr üçün birləşib müştərək təhdidlərə başlayacağı istisna oluna bilməz. Bu, əsasən, Xəzər dənizi hövzəsində Azərbaycana qarşı yönəlmiş hərbi təhdid kampaniyası ilə müşayiət oluna bilər.

## Bu vəziyyətdə Rusiya necə davranacaq?



Türkiyə Bəşər Əsədin Suriyada devrilməsinə nail olduqdan sonra Rusiya ilə İran arasındakı həssas müttəfiqlik əlaqələrindəki çatlar daha da böyüdü. İran və Rusiyanın Bəşər Əsədin əsas himayədarları statusundan məhrum olmasından sonra Türkiyənin Yaxın Şərqlə yanaşı, Cənubi Qafqazda da nüfuzunun genişlənməsi Moskva-Tehran xəttində narahatlıqları artırdı. Türkiyə isə Azərbaycanla strateji müttəfiqlik zərurətlərindən irəli gələrək ABŞ ilə əlaqələri gücləndirən addımlar atdı. Vaşinqtonda razılaşdırılmış məqamlar da Azərbaycanla Türkiyənin strateji maraqlarını ifadə edən tranzit marşrutunun reallaşacağını aktuallaşdırır.

Təbii ki, belə konfiqurasiya Cənubi Qafqazda əsas güc kimi dominantlıq etməyə çalışan Rusiyanı kənarda qoya bilər. Çünki Vaşinqton razılaşmaları Azərbaycanla Ermənistan arasında müharibəyə son qoyan 10 Noyabr Bəyanatı, Moskva və Soçi Bəyannamələrini qüvvədən salır.

Başqa tərəfdən, Azərbaycanla Ermənistanın razılığına əsasən, sərhəddə üçüncü tərəfin qüvvələrinin yerləşdirilməsi qadağan ediləcək. Bu qadağa, Ermənistandakı Avropa İttifaqı missiyası ilə bərabər, ehtimal ki, Rusiyanın 102-ci bazasını da əhatə edəcək.

Rusiya Ermənistanda ciddi təxribat ssenariləri hazırlamaqla prosesi tormozlamağa çalışacaq.

### RUSİYA ÇİNİ ÖZÜNƏ TƏRƏF ÇƏKMƏK İSTƏYİR

Bundan əlavə, Rusiya Çini dəhlizə həmçin regionda artan ABŞ və Türkiyənin nüfuzuna qarşı çıxmaq üçün diplomatik səylərə cəlb etmək cəhdlərində maraqlıdır. Lakin Pekin bu plana qarşı müqavimət göstərəcək, həm də ona görə ki, ABŞ ilə Çin arasında qlobal nüfuz dairəsinə dair danışıqlar konstruktiv atmosferdə keçirmiş kimi görüntüyə malikdir. Ancaq istisna olunmalı deyil ki, Rusiya Azərbaycan və Ermənistan arasında Ağ Ev vasitəsilə yaxşı qurulmuş iqtisadi tərəfdaşlıqları nəzərə alacaq. Bu, Rusiyanın Zəngəzur dəhlizində iqtisadi əməkdaşlıq kontekstindəki maraqlarına əsaslanacaq strategiya kimi düşünülməlidir. Bu o deməkdir ki, Rusiya ilə Azərbaycanın münasibətlərində normallaşma olacaqsa, Bakı gələcəkdə Moskvaya dəhlizin inkişafında müəyyən potensiala daxil olmaq imkanı tanıyacaq.

# AVROPANIN MÜSƏLMAN QORXUSU

Son illərdə Avropada milyonlarla müsəlmanın həyatına təsir edən narahatedici islamofob meyillərin artımı müşahidə olunur. Ayrı-seçkilik, nifrət nitqi, fiziki zorakılıq artdıqca, bir çoxları bu cür hallarla mübarizə üçün nə edilə biləcəyini soruşur.




AZƏR NURİYEV

Avropada islamofobiya halları artır. Ard-arda ölkələr başqa dindən olanlara, onların dini inanclarına qarşı məhdudiyyətlər tətbiq edirlər. Fransada islamofobiya ilə yanaşı, antisemitizm, Almaniyada sərt dini qanunlar, Belçikada, Avstriyada etirazlar artmaqdadır. Bu siyahıya İspaniya da daxil olub. Qəbul edilən qadağa isə hər kəsi təəccübləndirib. Ölkənin cənub-şərqindəki Mursiya əyalətində yerli şəhərlərdən birinin hakimiyyəti iki əsas müsəlman bayramının (Qurban və Ramazan bayramları) ictimai şəkildə qeyd edilməsini qadağan edib. Bunu belə tədbirlərin "ispan kimliyinə yad olması" ilə əsaslandırıb. İspan müsəlmanları qadağanı təşəbbüs edən Xalq Partiyasının (XP) yerli şöbəsini çirkin metodlarla hakimiyyət uğrunda mübarizə aparmaqda və ksenofob hisslərə müraciət etməkdə ittiham edirlər. Böyük ehtimalla məhdudiyyətlər ləğv ediləcək. Lakin Avropa İttifaqı (Aİ) üçün artıq presedent yaradıldığı iddia edilməyə başlayıb. Digər ölkələrin də analoji qərarlar qəbul edəcəyi vurğulanır.

**QADAĞA NƏYİ NƏZƏRDƏ TUTUR?**

Məlumata görə, Xumilya şəhərinin Bələdiyyə Şurası (yerli özünüidarəetmə orqanı) ictimai yerlərdə müsəlman bayramlarının keçirilməsinin qadağan edilməsinə səs verib. Şəhərdə təxminən 27 min insan yaşayır. Onlardan 1,5 mini İslam dininə etiqad edir və 7,5%-i (üç mindən çox insan) müsəlman ölkələrindən gəlmələrdir. Məhdudiyyətlər Ramazan və Qurban bayramlarına şamil edilir. Müsəlmanlara bayramları keçirmək üçün inzibati binalardan və idman zallarından istifadə etmək qadağan olunub. Məhz belə yerlərdə möminlər hər il ibadət edirdilər. Təklifin təşəbbüskarı mühafizəkar Xalq Partiyası olub. 2023-cü il regional seçkilər nəticəsində bu partiya bir neçə regionda, o cümlədən Xumilyanın yerləşdiyi Mursiyada öz liderliyini təsdiqləyib. Yerli özünüidarəetmə orqanlarındakı 21 yerdən onunu - yəni əksəriyyəti onlar qazanıblar. Doqquz yeri müsəlmanlara qarşı məhdudiyyətlərin tətbiqini bloklamağa çalışan sosialistlər tutur. Bələdiyyə Şurasına həmçinin "Birləşmiş Sollar"dan və ultrasağçı "Səs" (Vox) partiyasından bir nümayəndə daxildir. Təklifin bilavasitə müəllifi məhz "Vox"un nümayəndəsi Xuan Aqustin Navarro olub. Onun partiyası radikal antimiqrant bəyanatları və təşəbbüsləri ilə məşhurdur. Təklifin uğurla qəbul edilməsi münasibətilə "Vox"un sosial şəbəkələrində yeni bir bəyanat yayımlanıb: "Vox" sayəsində İspaniyada ilk dəfə olaraq ictimai yerlərdə islam bayramlarının qadağan edilməsi haqqında qərar qəbul edilib. İspaniya xristian xalqının torpağıdır və həmişə belə qalacaq".

## BÜTÜN AVROPANI ƏHATƏLƏYƏCƏK TƏHLÜKƏ

Belə qadağalar təkcə İspaniya üçün deyil, bütövlükdə Avropa üçün də ilkdir. Bəzi ölkələrin, məsələn Fransanın hakimiyyəti bu və ya digər dinə mənsubluq simvollarının geyilməsinə məhdudiyyətlər qoyub. Lakin ilk dəfə olaraq bir çoxlarının islamofob hesab etdiyi dəlillərlə əsaslandırılan qadağa açıq şəkildə tətbiq edilir.

İspaniyanın mərkəzi hökuməti artıq müsəlmanlar üçün məhdudiyyətlərin tətbiqini pisləyib. Bu təəccüblü deyil, çünki həm Baş nazir Pedro Sançes, həm də onun nazirlər kabinetinin demək olar ki, bütün üzvləri İspan Sosialist Fəhlə Partiyasının nümayəndələridir. Onlar miqrantlara dəstək siyasəti yürüdürlər və solçularla birlikdə sağçı "Vox" partiyasına və mühafizəkar XP-yə qarşı duran əsas qüvvəni təşkil edirlər.

"El Pais"in istinad etdiyi Nazirlər Kabinetinin KİV-lər üçün bəyanatında göstərilir ki, Xumilya hakimiyyətinin qərarı din azadlığını təmin edən Konstitusiyanın 16-cı maddəsinə ziddir. Buna görə də yaxın zamanda qadağanın ləğv ediləcəyini gözləmək olar.

**BƏS SƏBƏBLƏR HANSILARDIR?**

Yeri gəlmişkən, son illərdə Avropada milyonlarla müsəlmanın həyatına təsir edən narahatedici islamofob meyillərin artımı müşahidə olunur. Ayrı-seçkilik, nifrət nitqi, fiziki zorakılıq artdıqca, bir çoxları bu cür hallarla mübarizə üçün nə edilə biləcəyini soruşur. Burada onun artmasına səbəb olan bəzi əsas tendensiyalar var. Birincisi, ultra-sağçıların təsirinin güclənməsi. Onlar çox vaxt dəstək qazanmaq üçün müsəlmanları Avropa kimliyi və dəyərlərinə təhdid kimi təqdim edirlər. İkincisi, müsəlmanların mediada təsviri. Avropa mətbuatında müsəlmanların mənfi təsviri islamofobiyanın artması ilə əlaqələndirilir. Üçüncüsü, terror hücumları və təhlükəsizlik problemləri.

Ekspertlər qeyd edirlər ki, Avropada islamofobiyanın artması mürəkkəb problemdir, lakin həll oluna bilər.



Pedro Sançes

**BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR**

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# VAKANT YERLƏR HARADADIR?

İşə qəbul imtahanında yüksək nəticə göstərən namizədlər vakant yerlərin azlığından və ya heç olmamasından şikayət edirlər. Müvafiq qurum isə prosesin ilboyu davam edəcəyini bildirir.

## Qəbul planı və iş yerləri arasında uyğunsuzluq



Foto: Rüfət Mikayılov/Global Photostock



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin ümumi vakansiya seçimi mərhələsi bugünlərdə yekunlaşıb. Ancaq bəzi namizədlər vakant yerlərin azlığından şikayətçidirlər. 90-92 bal toplayan müəllimlər "Təhsil deyirsiniz, almışıq, bal deyirsiniz, toplamışıq, savad var, biz nə etməliyik?"- deyə vakant yer tapa bilmədiklərini, işsiz qalacaqlarından narahat olduqlarını bildirirlər. Müəllimlər vakant yerlərin gizlədildiyini, qeyr-şəffaf paylanıldığını, hətta bu barədə Elm və Təhsil Nazirliyinə məlumat verildiyini də iddia edirlər.

Gəncə, Yevlax, Goranboy rayonlarında müsabiqəyə ümumiyyətlə vakant yer çıxarılmadığı bildirilir. Ancaq mənzərəyə nəzər salanda problemin tək regionlarda deyil, paytaxt və rayonlarda da mövcudluğu məlum olur. Məsələn, redaksiyamıza müraciət edən müəllimlərdən biri paytaxtın Nizami rayonunda eyni problemlə üzləşdiyindən şikayətləninr: "İmtahanda 77 bal yığmışam. Amma Nizami rayon ərazisində cəmi bir vakant yer çıxır. Eşitmişik ki, vakant yerlər gizlədilir".

Qeyd edək ki, test imtahanı üzrə ümumtəhsil proqramı üzrə 34 bal və tədris metodikası üzrə minimum 6 bal olmaqla, 40 bal və daha artıq yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılır. Keçid balı toplamış namizədlər 8 vakant yer seçə bilərlər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi onların elektron ərizədə qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılır.

## Agentliyin iddialara cavabı

Müəllimlərin narazılıqlarına gəlincə, Məktəbəqədər Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) MİQ-in vakansiya seçimi ilə bağlı sualımıza cavab olaraq bildirildi ki, son illər keçirilmiş müsabiqələrin nəticəsində işə qəbul edilmiş və təhsilverənlərin sertifikatlaşdırma prosesini uğurla tamamlamış müəllimlərin orta dərs yükü əhəmiyyətli şəkildə artıb: "Prosesin davamı olaraq, bu il keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsinə çıxarılan yerlər detallı təhlil edilərək müəllimlərin işə qəbul, sertifikatlaşdırma və diaqnostik qiymətləndirmə nəticələri, mövcud müəllimlərin orta dərs yükü, mövcud müəssisələrdəki müəllim sıxlığı nəzərə alınıb. Nəticədə bu il müəllimlərin işə qəbulu üzrə müsabiqənin ilkin vakansiya seçimi mərhələsinə 7000-ə yaxın vakant yer çıxarılıb". MÜTDA-dan bildirilir ki, ənənəvi olaraq bu mərhələdə tutulmayan, həmçinin yaranan yeni vakant yerlər ilboyu elan ediləcək.





Foto: Rüfət Mikayılov/Global Photostock

Qeyd edək ki, artıq vakansiya seçimi mərhələsinin nəticələri elan edilib. Belə ki, 2025-2026-cı tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi mərhələsinin nəticələri namizədlərin şəxsi səhifələrinə göndərilib. 6-11 avqust tarixlərində keçirilmiş vakansiya seçimində 2407 namizəd uğur qazanaraq müsahibə mərhələsində iştirak hüququ əldə edib. Ümumilikdə isə müsabiqə üzrə 3958 namizəd müsahibə mərhələsində iştirak hüququ əldə edib.

### ƏGƏR VAKANT YER YOXDURSA...

Bir neçə gündür sosial mediada bu mövzuda ciddi müzakirələr getdiyini və müəllimlərin çox ciddi narazılığının müşahidə edildiyini deyən Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov hesab edir ki, əgər vakant yer bu qədər az olacaqdısa, onda müəllimlərin işə qəbulu üzrə imtahan keçirilməməli idi: "Bu qədər insan narazı salınmamalı idi. Əgər müəllimlər əziyyət çəkib imtahanda iştirak edirlərsə və bunun qarşılığını ala bilmirlərsə, vakant yer yoxdursa, Elm və Təhsil Nazirliyi bunun narazılıq yaradacağını qabaqcadan planlaşdırmalı idi. Əgər nazirliyin başqa baxışı varsa, anlaşılmazlığın aradan qalxması üçün məsələnin mahiyyəti barədə cəmiyyətə daha geniş məlumat verilməlidir. Yoxsa indi müəllimlər daha çox nazirliyin ünvanına ittiham səsləndirirlər. Bəziləri iddia edirlər ki, vakant yerlər var, qeyri-şəffaf yolla başqa müəllimlərə verilir". Millət vəkili bu cür söz-söhbətin təhsillə bağlı insanların fikirlərinə mənfi təsir etdiyini və onların narazı qalmasına səbəb olduğunu bildirir: "Ona görə biz bu məsələni ciddi araşdırmalıyıq. Səbəbləri və kökləri ilə bağlı məlumat verməliyik ki, narazılıq aradan qalxsın".

Məsələyə münasibət bildirən təhsil eksperti İlham Əhmədov da bildirdi ki, MİQ imtahanı yekunlaşıb, amma əvvəlki illərdə olduğu kimi paytaxtda və Abşeronda, həmçinin böyük rayonlarda müəllimlər kənarda qalıb: "Təbii ki, bu, əvvəlki illərdə planlaşdırma ilə bağlı buraxılmış səhvlərin nəticəsidir. Universitetlərə, pedaqoji sahəyə qəbul planı və iş yerləri arasında uyğunsuzluq var. Pedaqoji kadrlara ehtiyac azdır. Digər tərəfdən, hər il qəbul aparılır. Müəllimlər İnstitutu və onun 11 filialı ehtiyac olmadan yaradılıb. Orada hazırlanan on minlərlə kadra bazarda ehtiyac yox idi. Ən pisi o idi ki, yeni yaradılmış institutun zəif müəllim heyəti ilə müəllim hazırlandı və onların məzunları da keyfiyyətcə daha zəif idilər. Bütün bunlar öz təsirini 10-15 ildən sonra göstərir və bundan sonra da göstərəcək. Çünki buraxılan səhvlərdən nəticə çıxarmaq istəmirlər". Ekspert hazırda işsiz müəllimlərin çox olduğunu bildirir: "Onların arasından daha layiqlilərini seçib həvəsləndirmə şərtləri ilə regionlara, müəllim çatışmayan bölgələrə göndərmək olar. Xüsusən məzunları və gənc müəllimləri. Əks halda vəziyyət hər il belə davam edəcək". İ.Əhmədov müəllimlərin vakant yerlərin gizlədilməsi ilə bağlı fikirlərinə də münasibət bildirdi: "Sosial şəbəkələrdə də tez-tez yazırlar ki, məktəb direktorları aktiv vakant yerləri gizlədir. Onlar regional təhsil idarələri ilə birlikdə müəllimləri hansısa yollarla işə qəbul edir və ya həmin saatları məktəbdə işləyən digər müəllimlər arasında bölüşdürür, vakansiya vermirlər. Bu da vakant yerlərin az olmasına və belə gərgin vəziyyətin yaranmasına səbəb olur. Hesab edirəm ki, Elm və Təhsil Nazirliyi bu məsələləri dərindən təhlil etməli, elmi əsaslarla layihələr hazırlamalıdır".



MƏQSƏD DÖVLƏTİN STRATEJİ TAXIL EHTİYATLARININ HƏCMİNİN ARTIRILMASIDIR

# BUĞDA EHTİYATLARI MƏQSƏDLİ ŞƏKİLDƏ ARTIRILIR

Azərbaycan 2025-ci ilin ilk yarısında buğda idxalını 56% artırıb. Ekspertlər deyirlər ki, idxalın artması daxili istehsalın azalması və ya istehlakın kəskin yüksəlməsi kimi dəyərləndirilməməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycan 2025-ci ilin ilk yarısında buğda idxalını ötən ilin eyni dövrü ilə müqayisədə 56% artırıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu dövrdə ölkəyə 602 255 ton buğda idxal edilib. Buğdanın dəyəri 130,6 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən illə müqayisədə müvafiq olaraq 216 min ton və 45 milyon dollar çoxdur. Dünyanın bir çox ölkəsində buğda əsas ərzaq məhsulu hesab olunur və ərzaq təhlükəsizliyində mühüm rol oynayır. Əhalisi çörək və un məmulatlarını sevən və bu qidalardan daha çox istifadə edən ölkəmiz üçün isə ərzaqlıq buğdanın sabit təchizatı xüsusilə vacibdir. Bəs, maraqlıdır, idxalın artmasının səbəbləri nədir?

### "ƏRZAQLIQ BUĞDA TƏLƏBATINI ÖDƏYƏ BİLMİRİK"

İqtisadçı ekspert Pərviz Heydərov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, idxalın müəyyən dövrlərdə artmasının əsas səbəbi ölkənin daxili tələbatını tam ödəyə bilməməsidir: "Azərbaycanın idxal etdiyi əsas ərzaq məhsulları arasında ərzaqlıq buğda xüsusi yer tutur. Son illər ərzində ölkədə ərzaqlıq buğdanın daxili istehsalı və tədarükünə dair dövlət səviyyəsində bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilsə də, hələ də bu sahədə tələbat tam ödənilmir. Nəticə etibarilə, ölkəmiz bu məhsul üzrə idxaldan asılı vəziyyətdə qalır".

## MƏHDUD ƏKİN SAHƏLƏRİ

Yerli buğda istehsalının ölkənin tələbatını tam qarşılamamasının səbəblərinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, daxili bazarda istehsal edilən buğdanın maya dəyəri analoji idxal məhsuluna nisbətən daha yüksəkdir: "Daxili tələbatı tam qarşılaya bilməməyimizin bir sıra obyektiv və subyektiv səbəbləri var. Əvvəla, yerli istehsal olunan buğda tələb olunan keyfiyyət göstəricilərinə tam cavab vermir. Bundan əlavə, daxili bazarda istehsal edilən buğdanın maya dəyəri analoji idxal məhsuluna nisbətən daha yüksəkdir. Digər mühüm amil isə əkin sahələrinin məhdud olmasıdır. Ölkədə kənd təsərrüfatına yararlı torpaq sahələrinin məhdudluğu, iqlim və su ehtiyatları ilə bağlı çətinliklər buğda istehsalının genişləndirilməsinə və tələbatı ödəməsinə əngəl yaradır. Rusiya-Ukrayna müharibəsindən əvvəl razılaşmalar çərçivəsində Azərbaycan tərəfi Ukraynada müəyyən torpaq sahələrində buğda əkini ilə məşğul olmaq niyyətində idi. Lakin müharibə səbəbindən bu planlar reallaşmadı. Bu fakt bir daha göstərir ki, Azərbaycanın daxilində ərzaqlıq buğda ilə özünü təminetmə səviyyəsini artırmaq üçün həm coğrafi, həm də iqtisadi resurslar məhduddur və bu səbəbdən idxal hələ də əsas rol oynayır".

### "İDXAL YERLİ MƏHSULDAN SƏRFƏLİDİR"

2024-cü ilin statistikasına əsasən, Azərbaycanın buğda idxalının əsas hissəsi Rusiya və Qazaxıstanın payına düşür. Regionda baş verən gərginliklər fonunda buğda ticarətində hər hansı risklərin olması, un və çörək məhsullarının qiymətinə təsiri narahatlıq doğurur. Mütəxəssis bildirir ki, buğda idxalının artması un və çörək məhsullarının qiymətlərinə birbaşa təsir göstərmir: "Əksinə, idxal məhsulları yerli istehsaldan daha ucuz başa gəldiyinə görə qiymət artımı gözlənilmir. Azərbaycanın əsas idxal mənbəyi Rusiya olduğuna görə, oradan alınan ərzaqlıq buğda məhsulları aşağı tariflərlə, münasib qiymətə daxil olur. Bu da daxili bazarda un və çörək məhsullarının qiymətinin sabit qalmasına şərait yaradır. Rusiya ilə gərginliklərin idxala təsirinə gəldikdə isə, Moskva hazırda ağır iqtisadi sanksiyalar və böhran şəraitində olsa da, ölkə daxilində istehsal olunan məhsulların, xüsusilə də taxılın xaricə ixracını davam etdirir. Əksinə, bu məhsulların satışı Rusiya üçün əlavə gəlir mənbəyidir. Bu baxımdan inanmıram ki, Rusiya Azərbaycana buğda ixracını məhdudlaşdırsın".

### SUBSİDİYALAR, GÜZƏŞTLİ KREDİTLƏR

Ekspert əlavə edir ki, ölkədə yerli buğda istehsalının artırılması üçün dövlət tərəfindən stimullaşdırıcı addımlar atılıb: "Subsidiyalar, güzəştli kreditlər və infrastruktur dəstəyi istiqamətində görülən tədbirlər artıq öz bəhrəsini verir. Amma əsas məsələ əkinə yararlı torpaq sahələrinin artırılmasıdır. Bu olmadan daxili tələbatı tam qarşılayan istehsala keçmək çətin olacaq".






Pərviz Heydərov

## "İDXALIN ARTMASI İSTEHSALDA AZALMA SİQNALI DEYİL"

İqtisadçı Cəfər İbrahimli isə deyir ki, hazırda ərzaqlıq buğda ilə ölkənin özünü təmin etməsi istiqamətində bir sıra tədbirlər görülür. Lakin hələ də daxili istehsal ümumi tələbatı tam qarşılamaq gücündə deyil: "Faktiki olaraq Azərbaycanın bu sahədəki tələbatının yalnız 40 faizi yerli istehsal hesabına ödənilir, 60 faizi isə idxalla təmin olunur. Bu ilin ilk altı ayında buğda idxalında ciddi artım müşahidə olunur. Bu artım əsasən Rusiya və qismən də Ukrayna bazarları hesabına baş verir. İdxalın ilin əvvəlində artması isə istehsalda azalma siqnalı deyil, daha çox daxili ehtiyatların tənzimlənməsi və planlı tədarük siyasəti ilə bağlıdır. Əvvəllər idxal əsasən payız və qış aylarında baş tuturdusa, bu il tədarük prosesi daha erkən mərhələyə çəkilib. Bu, həm də qlobal bazarlardakı qiymət dəyişiklikləri və logistik risklər fonunda ehtiyatlı strategiyanın göstəricisi kimi dəyərləndirilə bilər".

### "HƏR İL BİR MİLYON TON BUĞDA İDXAL EDİRİK"

Mütəxəssis vurğulayır ki, ölkəmiz təqribən hər il bir milyon ton civarında ərzaqlıq buğda idxal edir. Bu il də bu həcmin dəyişməyəcəyi ehtimal olunur. Bu baxımdan, 2025-ci ilin ilk yarısında idxalın artması mütləq şəkildə daxili istehsalın azalması və ya istehlakın kəskin yüksəlməsi kimi dəyərləndirilməməlidir. İqtisadi təhlillər və cari tendensiyalar onu göstərir ki, idxalın artımı daha çox dövlət ehtiyatlarının gücləndirilməsi məqsədi daşıyır.



Cəfər İbrahimli

DOĞMALAR Kaspi 16 AVQUST ŞƏNBƏ 2025 9

“ATAMIN DƏHLİZDƏN GƏLİB BAXIŞI İLƏ ÇAY İSTƏMƏSİ HƏMİŞƏ GÖZÜMÜN QABAĞINDADIR”



Fotolar: Tural Xəlil - Global Photostock



Söhbətləşdi
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az


# “AĞLIMIZA GƏLMƏZDİ Kİ, ONU BELƏ TEZ İTİRƏCƏYİK”

**Xalq yazıçısı Yusif Səmədoğlunun qızı Humay Vəkilova:** “Atam az yaşadı, amma çox iş gördü. Bizdən də çox razı getdi. “Mən bu qızları min oğula dəyişmərəm”, - deyirdi. Biz ona oğul da, ana da olmuşuq. Ona övlad kimi necə lazımdırsa qulluq edirdik”.

Xalq yazıçısı Yusif Səmədoğlunun xatirə günüdür. Görkəmli ictimai xadim 16 avqustda həyatla vidalaşıb. Yazıçının 90 illik yubileyi də məhz bu ilin 25 dekabrına təsadüf edir. Hər iki tarixi qeyd etmək təkcə Vəkilovlar nəsli üçün deyil, Azərbaycan mədəniyyəti, ədəbiyyatı və cəmiyyəti üçün önəmlidir.
Yazıçının xatirə günü ərəfəsində “Kaspi” qəzetinin “Doğmalar” rubrikası üçün Yusif Səmədoğlunun qızı Humay Vəkilova ilə söhbətləşdik.



**“HEÇ VAXT İŞLƏRİMİZƏ QARIŞMAZDI”**

● **Adətən Yusif Səmədoğlu haqqında böyük qızı Mehriban xanım danışır. Bu dəfə bu missiya sizin üzərinizə düşdü. Çətindirmi?**

● Təbii ki, çətindir... Bizdə ata da bir az müsahibələrdən qaçırdı. O ailəni təmsil etmək çətindir, gərək layiqincə danışasan. Həm də mən ədəbiyyatdan uzaq adamam. Bu üzdən də çətindir. Bir də vaxt keçdikcə çox xatirələr unudulur...

● **Yusif müəllimin ocağında iki qız övladı böyüyüb. Biz onu böyük şairin oğlu, tanınmış ictimai xadim, Milli Azadlıq Hərəkatının öncüllərindən biri, millət vəkili, nəhayət bir yazıçı kimi tanıyırıq. Amma siz övladı olduğunuz üçün onu daha yaxşı xarakterizə edə bilərsiniz...**

● Bilirsiniz, atam haqqında düşünəndə həmişə deyirəm: o, demokrat idi. Heç vaxt işlərimizə qarışmazdı. Kiminlə telefonla danışırsan, məktəbə getdin-getmədin, gündəliyini gətir baxım, rəfiqələrinlə görüşdünmü - belə şeylər olmayıb. Çox zarafatcıl, mehriban insan idi.

● **Bu münasibət “onsuz da heç nə deməyəcək...” - deyə sizdə bir qədər arxayınlıq və ya sərbəstlik yaratmırdımı?**

● Qətiyyən... Məktəbi necə lazımdırsa oxuyub bitirdik, ali məktəbə qəbul olduq. Bacım filologiya ixtisasını bitirdi, amma ailə həyatı qurduğu üçün işləmədi. Mən də anamın istəyi ilə həkim oldum. Mən indi də işləyirəm. ”Vaqif 30” ünvanında yazıçıların binası vardı. Bütün yazıçı və şairlərin övladları orada yaşayırdı. Biz orada böyümüşdük, sonra bu binaya köçdük. Bizim indiyə qədər “WhatsApp”da “Vaqif 30” adlı qrupumuz var, indi də bir-birimizlə görüşürük. Bəlkə atam bu baxımdan qarışmayıb: bilirdi ki, kimlə oturub-dururuq. Evdə nizam-intizamı anama tapşırmışdı. Anam bizə nəzarət edirdi və o, bir az sərt idi. Atam daha çox oğlan nəvələrinə görə narahat olurdu.



● **Bəs məktəbdə, universitetdə Səməd Vurğunun nəvəsi olmaq sizə hansı “imtiyazları” qazandırırdı?**

● Əlbəttə, buna görə xüsusi hörmət olurdu. Küçədə bizi “Səməd Vurğunun nəvələridir” - deyə əllə göstərirdilər. Amma biz bundan istifadə etmirdik. Düzdür, biz babanı görməmişdik, heç anam da görməyib. Səməd Vurğun nəvə üzü görmədi. Atamın da ən qorxduğu bu idi, “Birdən nəvə görmərəm”, - deyə narahat olurdu. 50 yaşında bu qorxu atamda daha çox idi. Bu yaşı adlayandan sonra, həmişə deyirdi: şükür, nəvələrimi gördüm. Xəstəxanada ağır xəstə olanda biz uşaqlarla onu yoluxmağa gedirdik. “Uşaqları bura gətirməyin”, - deyirdi. Bir-iki dəfə də doluxsundu. İstəmirdi ki, uşaqlar onu elə ağır vəziyyətdə görsünlər.

● **Yusif müəllim xəstə olanda “dursam nə edəcəm?” - deyə arzulayırdı?**

● Bu sözü demirdi. Yəqin vəziyyətini başa düşürdü. Onda intuisiya çox güclü idi. Bir dəfə “görəsən, mən niyə belə oldum?” - dedi. Biz onun sağalmağı üçün nələr etmədik? Bəxtiyar Vahabzadə atamla bağlı Ümummilli Lider Heydər Əliyevə müraciət etdi. O, atanı Almaniyaya müalicəyə göndərdi. Burada “Leçkomissiya”da da yatdı. Amma müalicələrin heç bir faydası olmadı... Atamın ölümündən sonra onun iyini bibim Aybənizdən, nənəm Xavərdən, əmim Vaqifdən alırdıq. Heç kəs qalmadı...

> “Aygün, Mehriban, Humay adları Səməd Vurğunun əsərlərindən götürülüb. Atam məni “Yeddi oğul istərəm”in çəkilişlərinə aparırdı. Biz balaca idik, amma çəkilişlərdə iştirak edirdik.”

**“EVİMİZƏ TEZ-TEZ ZƏNG EDİB “CƏLALI OLAR?” - DEYƏ SORUŞURDULAR”**

● **Yusif müəllim sizə “anam” deyirmiş. Bu, nənəniz Xavər xanıma oxşarlığınızla bağlı idi, ya sadəcə atanızın əzizləməsi idi?**

● Mən və əmim qızı Nigar indi daha çox bibimiz Aybənizə oxşayırıq. Yadımdadır, Elçin Əfəndiyev həmişə bizə gələrdi. Mən onlar üçün həvəslə buterbrodlar hazırlayırdım. Bacım Mehriban da edirdi, amma atam mənə “anam, ondan hazırla”, - deyirdi. Bəlkə sonbeşik idim, ona görə...

● **Sizin adınız Səməd Vurğunun məşhur “Komsomol poeması”ndandır. “Yeddi oğul istərəm” filminin ssenari müəllifi də atanız olub. “Humay”la bağlı bir xatirəniz varmı?**

● Aygün, Mehriban, Humay adları Səməd Vurğunun əsərlərindən götürülüb. Atam məni “Yeddi oğul istərəm”in çəkilişlərinə aparırdı. Biz balaca idik, amma çəkilişlərdə iştirak edirdik. Atam məni kinostudiyaya da aparırdı. Mən o aktyorları çəkiliş zamanı görürdüm. Sovet dövrü idi. Film ekrana çıxandan sonra böyük rezonans doğurdu. Evimizə tez-tez zəng edib “Cəlalı olar?” - deyə soruşurdular.

**“SƏN GETDİN, BİZ NEYNƏRİK...”**

● **Atanız Səməd Vurğun haqqında nələr danışırdı?**

● Adətən atası haqda çox az danışırdı. Ola bilsin, atasını gənc yaşında itirməsi ona da ağır idi. Atası haqda olan verilişlərə də çox vaxt baxmırdı. Təsəvvür edin, o, atasının ölümündən sonra Moskvada institutu atıb gəldi, nənəmi tək qoymaq istəmədi. Kaş görəydiniz, nənəm Xavər necə xanım-xatın bir qadın idi. Onun elə xatirələri vardı ki...

● **Yusif Səmədoğlu dünyasını dəyişəndə siz ona məktublar, şeirlər yazmısınız. O şeirlərin taleyi necə oldu?**

● Mən o şeiri yuxuda gördüm. Hələ atamın 40-ı çıxmamışdı. Vaqifə verdim, oxuyub bəyəndi. Sonra “Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadəyə verdik. O da atama həsr olunmuş nömrədə çap etdi. Sonra atama məktublar yazırdım.

● **Nə yazırdınız?**

● “Sən getdin, biz neynərik” və s. Atamı itirmək bizim üçün çox ağır idi. Bacımla oturub “bir pis hərəkətini yadımıza salaq, bir az sakitləşək”, - deyə özümüzə təsəlli axtarırdıq. Atam xəstə olanda “Leçkomissiya”nın baş həkimi “hələ belə övladlar görməmişəm”, - deyə anama söylədi. Biz atamıza çox bağlı idik. Bilmirəm, bu onun insanlığı ilə bağlı idi, ya başqa səbəb vardı. Onun ölümündən bir şok keçirib o məktubu, sonra şeirlər yazdım. Yasa gələnlərdən soruşurdum ki, mən nə vaxt yüngülləşəcəyəm? Deyirdilər, bir ildən sonra...

● **Bir ildən sonra necə oldu, sakitləşdinizmi?**

● Zaman... O hər şeyi yerinə qoyur, bütün yaraları sağaldır. Düzdür, indi də ağırdır. Siz indi o yazını xatırladınız, mən həmin məktubu yazanda yaşadığım hissi keçirdim...

● **Amma heç biriniz ata-baba yolunu davam etdirib ədəbiyyatçı olmadınız...**

● Axı o istedad yoxdur. Gərək layiqincə onları təmsil edəsən, amma o istedad yoxdur.

● **Atanızın ən çox hansı xüsusiyyəti sizə keçib?**

● Demokratlıq... Mən də uşaqlarıma qarşı eləyəm. Maşallah, ikisi də ailə sahibidir. Atam nəvələrini dəlicəsinə sevirdi. Mən də, bacım da eləyik. İndi bacım ABŞ-yə - oğlunun yanına gedib. Orada nəvəsi var. Biz atamız kimiyik, nəvələrdən doymuruq. Böyük bacımın oğlu atama çox oxşayır.

**“HƏMİN TƏDBİRDƏ ATAM DEMİŞDİ Kİ, BİLİRƏM, 62 İL YAŞAYACAĞAM”**

● **Yusif Səmədoğlu özünü yazıçı, yoxsa millət vəkili kimi daha rahat hiss edirdi?**

● Daha çox fotoqraf kimi. Onun maraqlı kolleksiyası vardı. Bir dəfə Milli Məclisdən onun sərgisini də təşkil etdilər. Bizi qəfildən çəkirdi. Daha sonra plyonkaları aşkarlayırdı. Ailədə elə şəkillərimiz var ki... Evimizdə akvarium vardı. Balıqları yemləyəndə biz də ona kömək edirdik. Bizim itimiz, tutuquşumuz, kirpimiz də vardı. Atamın heyvanlara olan sevgisi bizə keçmişdi. O, bu işlərdən zövq alırdı. Atam sadə insan idi. Adamlarda da sadəliyi sevirdi. Dostları balıqçılar, fotoqraflar idi. Yadımda ən çox qalan onun dalbadal bir neçə stəkan çay içməsidir.. Çayxor idi. Dəhlizdən gəlib baxışı ilə çay istəməsi həmişə gözümün qabağındadır. Atamın musiqi alətində gözəl ifa etməyi vardı. Bir də eşidərdin o biri otaqdakı sintezatorunda “Sarı gəlin”i, “Tut ağacı boyunca”nı çalır. Heyif ki, biz o ifaları yazmırdıq. Elə bilirdik ki, atamız 100 il yaşayacaq. Ağlımıza gəlməzdi ki, onu belə tez itirəcəyik. İndi buna görə çox təəssüflənirəm. Atamın 50 illik yubileyində Heydər Əliyev də iştirak edirdi. O, atanı çox istəyirdi. Həmin tədbirdə atam demişdi ki, bilirəm, 62 il yaşayacağam. 63 il yaşadı...



**“HƏR HALDA, ATAMIN XİDMƏTLƏRİ ÇOX OLUB”**

● **Yusif Səmədoğlunun yaxın dostları arasında Anar, Elçin və başqaları olub. Bu yaxınlarda Elçin dünyadan köçdü...**

● Atam yadıma düşdü... Bir də Anar müəllimə kövrəldim. “Mən sonuncu yaxın dostumu itirdim”, - dedi. Bizim evdə Elçin, Maqsud İbrahimbəyov, Eldar Quliyev, İmran Qasımov, İsmayıl Şıxlı, Emin Sabitoğlu olurdu. Atam İsmayıl Şıxlı ilə, Anarla demək olar ki, hər gün söhbət edirdi. Xalq Cəbhəsinin üzvləri bizə gəlirdi. Bacımın toyunda Əbülfəz Elçibəy də iştirak edirdi.

● **Atanızın ölümündən sonra dostların da ayağı kəsildi?**

● Nənəm həmişə deyirdi ki, Səməd Vurğun rəhmətə gedən kimi mənim telefonum susdu. Bizim telefon da susdu. Amma atam İmran Qasımovla yaxın dost idi. Hər yeni ildə onun həyat yoldaşını təbrik edirdi. Bizdə isə telefon susdu...

● **Yusif Səmədoğlunun “Deyilənlər gəldi başa” romanı çap olunub. Ancaq o, bu əsəri bitirməmişdi...**

● Bitirə bilmədi, xəstələndi. Həm də atam bir az tənbəl idi. Vəfatından sonra biz onun kompüterindən materialı götürüb yarımçıq əsər kimi çap elədik. Biz Vaqifə “bəlkə sən bitirəsən”, - dedik. Əmim “heç vaxt, qoy belə qalsın...”, - deyə qəti etiraz etdi.

## “ATAM AZ YAŞADI, AMMA ÇOX İŞ GÖRDÜ”

● **Şəxsi əşyalarını muzeyə vermisiniz?**

● Şəxsi əşyaları Səməd Vurğunun Ev-muzeyindədir. Biz nazirliyin dəstəyi ilə muzeydə bir guşə yaratdıq: yazı masası, əlyazmaları, fotoaparatları, trubkaları oradadır. Nə qədər sağıq, vaxtında muzeyə verdik. Orada qalsa yaxşıdır.
İndi bibimin oğlu Vurğun muzeyinin direktorudur. Atam Moskvada Yevgeni Yevtuşenko ilə oxuyub. O, bir kitabını mənimlə bacıma həsr edib. Həmin kitabı da muzeyə vermək istəyirəm.

● **Dekabr ayında 90 illik yubileyi olacaq. Yubileyi necə qeyd etməyi düşünürsünüz?**

● Bu, bizim işimiz deyil. Bu barədə yəqin Yazıçılar Birliyi düşünər. Hər halda, atamın xidmətləri çox olub. Elə 20 Yanvar hadisələrini xatırlayaq. O hadisələr zamanı çox sarsılmışdı. Canlı yayımda bütün dünyaya baş verənlər haqqında car çəkmək böyük cəsarət tələb edirdi. Atamla Bəxtiyar Vahabzadə heç nədən qorxmadan insanları qırğından qorumağa çalışırdılar. Hər an evə girib, atamı apara bilərdilər. Atam vətənini olduqca çox sevirdi. Həmişə deyirdi ki, vətənimi qoyub heç yerə getmərəm. O vaxt məni də, bacımı da oxumağa Azərbaycan bölməsinə yazdırdı. Elə dövr idi ki, rus bölməsində oxuyanlar bizə yuxarıdan aşağı baxırdılar. Mən Tibb Universitetində oxuyanda bunu yaşamışam.

Atam az yaşadı, amma çox iş gördü. Bizdən də çox razı getdi. “Mən bu qızları min oğula dəyişmərəm”, - deyirdi. Biz ona oğul da, ana da olmuşuq. Ona övlad kimi necə lazımdırsa qulluq edirdik. Bizi çağıran kimi qulluğunda dururduq. Bir tərəfdən xoşbəxtəm ki, belə ata ilə ünsiyyətdə olmuşam.

# KOLATAĞ VƏ VƏNGLİ SAKİNLƏRİNİ QARŞILAYIR

Ağdərə rayonunun 5 yaşayış məntəqəsinə (Talış, Həsənriz, Suqovuşan, Kolatağ, Vəngli) 407 ailənin (1420 nəfər) köçürülməsi təmin olunub.



İşğaldan azad edilmiş ərazilərin məskunlaşdırılmasını nəzərdə tutan Böyük Qayıdış Proqramının icrası uğurla davam edir. Bu dəfə doğma yurdlarına qayıtmağın sevincini ilk dəfə Ağdərə rayonunun Kolatağ və Vəngli kəndinin sakinləri yaşayıblar.

### KOLATAĞA 26 AİLƏ KÖÇÜRÜLÜB

Ağdərə rayonunun Kolatağ kəndinə ilkin mərhələdə 26 ailə (89 nəfər) köçürülüb. Köç edənlər ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış ailələrdir. Belə ki, kənddə Ağdam rayonundan 6 ailə (24 nəfər), Bakı şəhərindən 5 ailə (16 nəfər), Bərdə rayonundan 5 ailə (16 nəfər), Ağcabədi rayonundan 3 ailə (13 nəfər), Sumqayıt şəhərindən 2 ailə (6 nəfər), Tərtər rayonundan 2 ailə (4 nəfər), Oğuz rayonundan 1 ailə (4 nəfər), Göygöl rayonundan 1 ailə (3 nəfər), Qəbələ rayonundan 1 ailə (3 nəfər) məskunlaşıb.

Ailələrin qarşılanma mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin nümayəndələri iştirak ediblər.

### BEŞ YAŞAYIŞ MƏNTƏQƏSİ MƏSKUNLAŞDIRILIB

Ağdərə rayonunun Vəngli kəndinə də işğaldan azad olundan sonra ilk köç baş tutub. İlkin mərhələdə kəndə 22 ailə (83 nəfər) köçürülüb. Köç edənlər ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Vəngli kəndində Kürdəmir rayonundan 12 ailə (43 nəfər), Bərdə rayonundan 3 ailə (12 nəfər), Qax rayonundan 2 ailə (9 nəfər), Füzuli rayonundan 1 ailə (6 nəfər), Sumqayıt şəhərindən 1 ailə (5 nəfər), Oğuz rayonundan 1 ailə (4 nəfər), Ağdam rayonundan 1 ailə (3 nəfər), Bakı şəhərindən 1 ailə (1 nəfər) məskunlaşıb.

Qeyd edək ki, bununla Ağdərə rayonunun 5 yaşayış məntəqəsinə (Talış, Həsənriz, Suqovuşan, Kolatağ, Vəngli) 407 ailənin (1420 nəfər) köçürülməsi təmin olunub.



## SAKİNLƏR ÜÇÜN UNUDULMAZ ANLAR

Hər iki kəndin sakinləri bu anların onlar üçün unudulmaz olduğunu bildirirlər.

"Sakinlər kəndə qayıdışın sevinc dolu həyəcanını yaşayırlar", - bunu "Report"a açıqlamasında Kolatağ kənd sakini Vilayət Ələkbərov deyib.

O, doğma kəndə qayıdışın sevincini sözlə ifadə etməyin çətin olduğunu vurğulayıb:

"Çox həyəcanlıyam. 30 ildən çox kəndimizə, öz ocağımıza dönəcəyimiz günün xəyallarını qurduq. Bəzən kəndi gördüyümüz yuxuların təsirindən uzun müddət çıxa bilmirdik. Çox şükür, Kolatağa qayıdış artıq yuxu deyil, reallıqdır".

Kolatağ kənd sakini Rəşadət Musayev bildirib ki, 30 ildən çox davam edən yurd həsrətinə artıq bu gün son qoyulur. O, kəndə beş nəfərlik ailəsi ilə qayıtdığını vurğulayıb:

"Kəndimiz 1992-ci il martın 12-də işğal olundu. Məcburi köçkünlük illərində məskunlaşdığımız Ağcabədi rayonunda çətin günlər yaşadıq. 30 ildən artıq davam edən doğma yurd həsrətinə artıq son qoyulur.

Buna görə çox sevincliyik. Kəndimizə beş nəfərlik ailəmlə qayıdıram. Digər sevindirici məqam odur ki, yurda dönməyin sevincini övladlarım məndən daha çox yaşayırlar".

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə 50 mindən çox insan yaşayır.



# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI AÇIQLANIB

Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 16 833 nəfər və ya 0,2 faiz artaraq 2025-ci il iyul ayının 1-i vəziyyətinə 10 milyon 241 min 722 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Bu ilin iyul ayının əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasının, 23 faizi Bakı şəhərinin, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,8 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Həmçinin, cari ilin ilk altı ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 45 616 doğulan körpə qeydə alınıb. Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 9,6-dan 9,0-a düşüb. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,3 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,7 faiz olub. Doğulan körpələrdən 1510-u əkiz, 63-ü isə üçəm olub.

Bu ilin yanvar-iyun ayları ərzində ölkədə 29 400 ölüm halı qeydə alınıb. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,9-dan 5,8-ə düşüb.

Bu ilin birinci yarısında daimi yaşamaq üçün Azərbaycana gələn 1 709 nəfər qeydə alınıb.

2025-ci ilin yanvar-iyun ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1709 nəfər gələn, Azərbaycandan isə 1092 nəfər gedən qeydə alınıb, ölkə üzrə miqrasiya saldosu müsbət 617 nəfər təşkil edib.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1720
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# ÖZƏL DAŞIYICILAR SUBSİDİYA İSTƏYİR




**Özəl daşıyıcı şirkətlər zərərlə işlədiklərini bildirir. Səbəb kimi isə dövlət tərəfindən tənzimlənən aşağı tarifləri, artan xərcləri, yeni avtobusların idxalında vergi yükünü və dövlət operatoru ilə özəl şirkətlər arasında mövcud bərabərsizliyi göstərirlər.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda ictimai nəqliyyat sistemi, xüsusilə də avtobusların fəaliyyəti son illərdə geniş müzakirələrə səbəb olur. Bu sahədə çalışan özəl daşıyıcılar vəziyyətin getdikcə ağırlaşdığını iddia edir. Onlar ardıcıl olaraq zərərlə işlədiklərini bildirir, səbəb kimi isə dövlət tərəfindən tənzimlənən aşağı tarifləri, artan xərcləri, yeni avtobusların idxalında vergi yükünü və dövlət operatoru ilə özəl şirkətlər arasında mövcud bərabərsizliyi göstərirlər. Şirkətlər iddia edirlər ki, bazarda qeyri-sağlam rəqabət mühiti formalaşıb. Standartlara əməl edən və parkını müasir avtobuslarla yeniləyən şirkətlər daha çox xərc çəkir, eyni statusda fəaliyyət göstərən və tələblərə riayət etməyən daşıyıcılarla rəqabət aparmaq məcburiyyətində qalırlar.

**ÖZƏL VƏ DÖVLƏT OPERATORLARINA FƏRQ QOYULUR?**

Ötən həftə "Xaliq Faiqoğlu" MMC-nin rəhbəri Faiq Seyidov keçirdiyi mətbuat konfransında təmsil etdiyi şirkətin zərərlə işlədiyini bildirib. O deyib ki, ictimai nəqliyyatdakı hazırkı qiymətlər yalnız əməliyyat xərclərini qismən qarşılamağa imkan verir, investisiya və parkın yenilənməsi isə bank kreditləri hesabına həyata keçirilir. Bu isə sektorda bərabərsiz mühit yaradır. Dövlət operatoru "BakuBus" mütəmadi olaraq büdcədən maliyyə dəstəyi alırsa, özəl şirkətlər fəaliyyətlərini kredit və yüksək vergi yükü ilə davam etdirirlər.

Bəs, görəsən, bu iddialar nə dərəcədə əsaslıdır? Dövlətin bu sahəyə hansısa formada dəstəyi olmalıdırmı?

**"SƏRNİŞİNDAŞIMA TARİFLƏRİ XƏRCLƏRİ ÖDƏMİR"**

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev də deyir ki, mövcud sərnişindaşıma tarifləri ilə xərcləri ödəmək çətindir: "Problemin həll yolları var. Problemin həlli brutto müqavilələrə keçid etməkdən keçir. Bu o deməkdir ki, dövlət hər kilometrə görə ictimai nəqliyyatdakı daşıyıcılar üçün subsidiya nəzərdə tutur. Beləliklə də bu sahənin daha rentabelli işləməsi təmin oluna bilər. Digər tərəfdən isə bu, bir sıra çeşidli imkanlar yaradacaq. Bu zaman banklar daşıyıcılara kredit verməyə daha həvəsli olacaqlar. Çünki risklər minimumlaşacaq. Subsidiyalar ayrıldığı təqdirdə avtoparkın yenilənməsi daha sürətli baş verəcək. Belə olarsa, daşıyıcı şirkətlər tərəfindən sərnişinlər üçün çeşidli paketlərin təklif edilməsi üçün də zəmin yaranacaq. Yəni sərnişinlərə günlük, həftəlik, aylıq bilet paketləri təklif ediləcək. Bu da vətəndaşlara daha ucuz səyahət etmək imkanı yaradacaq. Tələbələr, müharibə iştirakçıları, təqaüdçülər üçün əlavə paketlər, güzəştlər formalaşdırmaq da mümkündür. Yəni təkcə avtobus zolaqları çəkməklə ictimai nəqliyyatdakı problemlər tam həll olmur. Maliyyə dayanıqlılığı təmin olunmalıdır ki, daşıyıcılar daha keyfiyyətli xidmət göstərə bilsinlər. Yalnız bu olduğu təqdirdə daşıyıcılardan nəsə tələb etmək ədalətli olacaq".




## "SUBSİDİYALARIN AYRILMASI MÜTLƏQDİR"

Ekspertin sözlərinə görə, həm dizel, həm də elektriklə işləyən avtobuslar üçün dövlət dəstəyi mütləqdir: "Bundan öncə 2021-ci ildən dizellə işləyən avtobuslar üçün subsidiyalar nəzərdə tutulmuşdu. Lakin bu qərar 2023-cü ildən etibarən ləğv edilib. Elektriklə işləyən avtobusların ölkəyə gətirilməsi ilə bağlı güzəştlər tətbiq edilirdi. Lakin onların da fəaliyyətlərində hər hansı güzəştlər mövcud deyil. Hazırkı vəziyyətdə əməliyyat xərcləri onsuz da bahadır. Avtobusların xaricdən alınan ehtiyat hissələrinin də qiyməti davamlı olaraq artır. Bütün bu səbəbləri nəzərə alaraq düşünürəm ki, dövlət tərəfindən daşıyıcılara subsidiyaların ayrılması mütləqdir. Əksər dünya ölkələrində ictimai nəqliyyat subsidiya olunur. Bu da dayanıqlı ictimai nəqliyyatın təmin olunması üçündür".

**DEPUTAT DA "SUBSİDİYA VERİLMƏLİDİR", - DEYİR**

Milli Məclisin deputatı Naqif Həmzəyev deyir ki, son illər ölkədə davamlı olaraq ictimai nəqliyyatla bağlı islahatlar həyata keçirilir. Hökumətin məqsədi sərnişindaşımada keyfiyyətin tam olaraq təmin edilməsidir. Amma bütün yeniliklərə baxmayaraq, problemlər tam olaraq aradan qalxmayıb: "Avtobus parkının tamamilə yenilənməsinə şahidlik edə bilmirik. Mərkəzdən kənar ərazilərdə hələ də köhnə avtobuslar görürük. Gələcəkdə köhnə avtobuslar istifadədən çıxarılacaq və yeniləri ilə əvəz olunacaq".

N.Həmzəyevin fikrincə, daşıyıcı şirkətlər gücləri çatan qədər avtobus parkını yeniləməyə çalışırlar. Ancaq istənilən halda, ictimai nəqliyyatda keyfiyyəti təmin edə bilmək üçün daşıyıcı şirkətlərə dövlət dəstəyi olmalıdır: "Bu zaman müəyyən kateqoriyadan olan vətəndaşlara güzəştlər də tətbiq etmək olar. Xüsusilə məktəblilər, tələbələr, müəllimlərin bu siyahıda olması təqdirəlayiq olardı. İctimai nəqliyyatda tam keyfiyyəti təmin etdikdən, həmçinin şirkətlər gəlirlə işlədikdən sonra bu cür güzəştlərlə əhalini ictimai nəqliyyata təşviq etmək mümkündür".

# ƏLDƏ YERLİ MƏHSUL, SÜFRƏDƏ İDXAL

SEVİNC ABBASOVA

2025-ci ilin ilk yarısında Azərbaycanın kartof ixracı kəskin şəkildə artıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, yanvar-iyun ayları ərzində ölkədən 69 min tondan çox kartof ixrac olunub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 43 faizdən çox artım deməkdir. Dəyər baxımından isə ixrac yeddi milyon dollar artaraq 27,4 milyon ABŞ dollarına çatıb.

### HƏM İXRAC, HƏM DƏ İDXAL DAVAM EDİR

Statistik məlumatlara nəzər salarkən əslində hər şey qaydasında kimi görünür. Həm məhsul bol olub, həm də ölkəyə əlavə valyuta daxil olub. Amma ixracla yanaşı, bu məhsulun idxalı da davam edib.

Bəs ümumilikdə kartof bazarında vəziyyət necədir?

2024-cü ildə ölkədə kartof əkinlərinin ümumi sahəsi 46 min 748,6 hektar təşkil edib. Bu göstərici 2023-cü ildə 49 min 460.5, 2022-ci ildə isə 54 min 775.7 hektar olub. Ötən il ölkədə ümumilikdə 927 min 381,7 ton kartof istehsal edilib. Onun da 48,3 min tonu xaricə ixrac edilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycana xarici ölkələrdən 42651,4 ABŞ dolları dəyərində 149 min 206,0 ton kartof idxal edilib. Bu da kartofun orta gömrük dəyərinin təxminən 285,85 ABŞ dolları/ton (0.29 ABŞ dolları/kq – 0.49 manat) olması deməkdir. Son bir ildə idxal edilən kartofun gömrük dəyərində heç bir dəyişiklik olmayıb. Ən çox kartof İrandan (66 min ton), Gürcüstandan (24 min ton) və Türkiyədən (10 min ton) idxal olunub.

Xatırladaq ki, rəsmi ərzaq balansında ölkə əhalisinin illik kartof istehlakı 840-845 min ton göstərilir.



Akif Nəsirli







Azərbaycanın kartofu, xüsusilə Rusiyada brend məhsul kimi tanınır. Bu səbəbdən orada daha baha satılır. Ona görə də fermerlər üçün daxili bazar ikinci plana keçir.



## XƏRCLƏRİN ARTMASI MAYA DƏYƏRİNİ CİDDİ ŞƏKİLDƏ ARTIRIR

Cəlilabad rayonunda kartof əkini ilə məşğul olan təcrübəli fermer Elman Mansurov bildirir ki, bu il məhsuldarlıq pis olmasa da, xərclərin artması qazancı ciddi şəkildə azaldıb: "Məhsuldarlıq əsasən toxumun keyfiyyətindən asılıdır. Məsələn, bəzi toxumlar hektara 20-25 ton məhsul verir, amma "Arizona" sortu ilə 35-40 tona qədər məhsul toplamaq olur. Lakin məsələ burasındadır ki, bu məhsulu əldə etmək üçün çəkilən xərclər illər öncəsi ilə müqayisədə dəfələrlə artıb".

Fermerin sözlərinə görə, torpaq icarəsindən tutmuş, gübrəyə, işçi qüvvəsinə, qablaşdırmaya və nəqliyyata qədər bütün xərclər iki-üç qat bahalaşıb: "Torpaq icarəsi əvvəllər 500-600 manat idi, indi 1000-1200 manata qalxıb. El arasında "qırmızı gübrə" deyilən "Nitroammofoska" gübrəsi əvvəllər 11 manat 50 qəpiyə satılırdısa, bu il biz onu 40 manata aldıq. Azot gübrəsi 30 manata başa gəldi. İşçi qüvvəsi də bahalaşıb. Vaxtilə sahədə qadın gündəlik 15 manata işləyirdilərsə, bu il 25-30 manat istəyirlər".

Fermerin dediyinə görə, bu xərclərə kartof yığımı zamanı istifadə olunan materiallar da əlavə olunur: "Məsələn, kağız kisələr və yapışqan lentlərin qiyməti də kəskin bahalaşıb. Keçən il kağız kisənin bir ədədini 55-60 qəpiyə alırdıqsa, bu il 75-80 qəpik oldu. Yapışqan lentin qutusunu əvvəl 90-100 manata alırdıq, bu il 120-130 manata aldıq. Suvarma aparan fəhlə bir günü 20 manata işləyirdi, indi 35-40 manat istəyir və s. Bu isə məhsulun maya dəyərini ciddi şəkildə artırır".



Mircavid Həsənov

## XARİCİ BAZARLAR YERLİ FERMERLƏRİN ƏSAS ÜMİD YERİDİR

Fermerlər üçün əsas ümid ixrac bazarları olsa da, burada da vəziyyət ürəkaçan deyil. Həmsöhbətimiz deyir ki, nəqliyyat xərcləri və gömrük rüsumları artıb. Amma yenə də Azərbaycan kartof istehsalçıları üçün xarici bazarlar yeganə ümid yeridir: "Əgər Rusiya, Ukrayna, Gürcüstan bazarları olmasa, biz batarıq. Keçən il daha çox məhsul ixrac edə bilmişdik. Bu il nəqliyyat və logistika xərclərinin artması bizi geriyə saldı. Bəzən Rusiya ilə problem yaşanır, məhsulu göndərə bilmirik. Onda məcbur yerli bazarda satırıq. Amma qiymət dərhal düşür. Məsələn, bu yaxınlarda Rusiya ilə problem olanda kartofun topdansatış qiyməti yerli bazarda 35-40 qəpiyə qədər enmişdi."

Elman Mansurov vurğulayır ki, artan xərclər məhsulun qiymətinə əlavə olunsa da, bazar qiymətləri bu dəyişiklikləri əks etdirmir. Fermerlər zərərə işləmək məcburiyyətində qalırlar: "Aprelin sonu, mayın əvvəllərində kartofun topdansatış qiyməti 1 manat 20 qəpiyə çatmışdı. Sonra 80 qəpiyə, daha sonra isə açıq sahələrdə yığım başlayanda 60 qəpiyə qədər ucuzlaşdı. Hər tonun xərci 12-13 min manata başa gəlir. 60 qəpiklə satanda hektardan ancaq 2-3 min manat qazanc qalır".

### İSTEHSALDA QEYRİ-BƏRABƏR PAYLANMA

İqtisadçı-ekspert Akif Nəsirli hesab edir ki, kartof bazarındakı dalğalanmalar dərin struktur problemlərinin nəticəsidir: "İstehsal təqvimə görə qeyri-bərabər paylanıb. Yaz və payızda bolluq olur, məhsul bir anda bazara çıxır. Çünki saxlama infrastrukturu zəifdir. Hazırkı dövrdə 60-70 faiz bazar payı yerli kartofa məxsusdur. Bu tendensiya payıza doğru da dəstəklənəcək. Amma qışa doğru yerli məhsulun bazar payı əhəmiyyətli dərəcədə azalır və bazarın 70 faizini idxal kartofu tutur".

O, bölgələrdə soyuducu anbarların tikilməsini və dövlət dəstəyinin artırılmasını təklif edir.

Kənd təsərrüfatı mütəxəssisi Mircavid Həsənov isə bildirir ki, Azərbaycanın kartofu, xüsusilə Rusiyada brend məhsul kimi tanınır və orada baha satılır: "Bizdə istehsal kifayət qədərdir. Amma məhsul ilk olaraq ixrac olunur. Bu isə o deməkdir ki, daxili bazar ikinci plana keçir. Halbuki, istehsal həcmi elə səviyyədədir ki, əgər ixrac olmasa, ölkə əhalisinin tələbatını tam ödəmək olar. Problem ondadır ki, tələbat var, həcm də var, amma mal xaricə getdiyinə görə yerli bazar boş qalır".

BU ARTIMIN MÜSBƏT TƏRƏFLƏRİ İLƏ YANAŞI, MƏNFİ TƏRƏFLƏRİ DƏ MÖVCUDDUR

# ENERJİ TƏLƏBATINDA REKORD GÖSTƏRİCİ



Elektrik enerjisinə olan tələbatımız rekord həddə çatıb. Ekspertlərin fikrincə, bu, həm də iqtisadi artım və sənaye inkişafı ilə bağlıdır. Lakin tələbatın artmasının mənfi tərəfləri də var.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda 6 avqust saat 15:00-da elektrik enerjisinə tələbat rekord həddə çataraq saatda 4871 meqavat olub. Eyni zamanda, sutkalıq enerji istehlakı da 100 milyon kilovat-saata yüksəlib. "AzərEnerji"dən verilən məlumata görə, bu sürətli artımın arxasında yalnız isti, bürkü və soyuducu sistemlərinin, əyləncə mərkəzlərinin çox işləməsi dayanmır. Əsas səbəb - son illərdə ölkə iqtisadiyyatının, sənaye müəssisələrinin, çoxmənzilli binaların və ümumilikdə bütün sahələrin davamlı və dinamik inkişafıdır.

Müqayisə üçün qeyd edək ki, 2018-ci ilin yayında temperatur 40-42 dərəcə olarkən ölkə üzrə pik tələbat 3625 meqavat olmuşdu. Son yeddi ildə isə ölkə üzrə pik tələbat 1200 meqavatdan çox artıb. Buna adekvat olaraq, ölkə başçısının tapşırığına uyğun "AzərEnerji" tərəfindən əlavə generasiya mənbələri, yarımstansiyalar yaradılıb, yeni SCADA, rele mühafizəsi, əks-qəza avtomatikası, tezliyin tənzimlənməsi, reaktiv gücün kompensasiyası üzrə yenilənmiş müasir sistemlər tətbiq edilib.

**PİK İSTEHLAKIN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ**

İqtisadçı Famil Niftiyev tələbatın artım səbəblərini belə izah edir: "6 avqust tarixində qeydə alınmış 4871 meqavatlıq pik tələbatın əsas səbəbi kimi isti hava və soyuducu sistemlərinin kütləvi istifadəsi göstərilsə də, bu, prosesin yalnız görünən tərəfidir. Əslində, son illərdə Azərbaycan iqtisadiyyatının strukturunda baş verən dəyişikliklər elektrik enerjisi tələbatının səviyyəsini xeyli artırıb. Sənaye parklarının, böyük istehsal müəssisələrinin, logistika mərkəzlərinin və xidmət sektoru obyektlərinin işə düşməsi enerji istifadəsini artırır. Urbanizasiya prosesi nəticəsində çoxmənzilli binaların və yeni yaşayış massivlərinin şəbəkəyə qoşulması, kənd təsərrüfatında elektriklə işləyən nasos və istixana sistemlərinin yaradılması, məişətdə daha çox enerji tutumlu cihazların istifadəsi də tələbatın gündəlik artımına səbəb olur. Evlərdə və müəssisələrdə eyni vaxtda bir neçə yüksək güc tələb edən cihaz işlədilir. Bütün bunlar mövsümi amillərlə üst-üstə düşəndə rekord tələbat yaranır".

F.Niftiyevin sözlərinə görə, bunun həm mənfi, həm də müsbət nəticələri mövcuddur: "Müsbət tərəfdən baxdıqda, artan enerji tələbatı iqtisadi fəallığın yüksəldiyini, sənaye istehsalının genişləndiyini, urbanizasiyanın sürətləndiyini və əhalinin həyat səviyyəsinin yaxşılaşdığını göstərir. Lakin tələbatın çox sürətli artması enerji infrastrukturuna təzyiq yaradır. Əgər generasiya gücü, ötürücü və paylayıcı şəbəkə bu artıma adekvat şəkildə genişləndirilməsə, sistem yüklənir, qəza riskləri və kəsinti ehtimalı artır. Pik tələbatın qarşılanması üçün tez işə düşən, amma daha bahalı enerji mənbələrindən istifadə olunur ki, bu da ümumi xərcləri artırır. Yəni iqtisadi inkişaf müsbət siqnal olsa da, onunla ayaqlaşmayan enerji infrastruktur siyasəti mənfi nəticələr doğura bilər".



Famil Niftiyev

## "TƏLƏBAT 6000 MEQAVATA YAXINLAŞA BİLƏR"




İqtisadçının fikrincə, tələbat artımı tariflərə üç əsas mexanizm vasitəsilə təsir göstərə bilər: "Yüksək pik dövrlərdə əməliyyat xərcləri artır, çünki bahalı yanacaqla işləyən əlavə blokların işə salınması lazım gəlir. Artan tələbatı qarşılamaq üçün yeni generasiya gücü, yarımstansiyalar, ötürücü xətlər və idarəetmə texnologiyaları qurulur - bu da iri kapitallı investisiyalar tələb edir. Orta və uzun müddətdə tələbatın bu tempdə böyüməsi qiymətlərin yüksəlməsi riskini artırır".

Müsahibimiz bildirdi ki, gələcəkdə tələbat daha da arta bilər: "2018-ci ildə pik tələbat 3625 meqavat idisə, 2025-ci ildə bu göstərici 4871 meqavata çatıb. Yeddi il ərzində 1246 meqavat artım baş verib ki, bu da illik təxminən 178 meqavat deməkdir. Əgər bu temp dəyişməsə, beş il sonra pik tələbat 5760–5800 meqavat səviyyəsinə yüksələ bilər. Əgər sənaye istehsalı, urbanizasiya və iqlimdə ekstremal istilər daha da güclənərsə, artım sürətlənə bilər və pik tələbat 6000 meqavata yaxınlaşacaq".

**"BU ŞİRKƏTLƏR VERGİDƏN AZADDIRLAR"**

İqtisadçı Murad Calalov isə düşünür ki, texnologiya inkişaf etdikcə, elektrik enerjisinə olan tələbatın artması normaldır: "Bakıda binaların, mənzillərin sayı artır. Həmçinin istehsal sahələrimiz də artır. Sahə artdıqca, texnologiya inkişaf etdikcə tələbata da təsir edir". M.Calalovun sözlərinə görə, tələbatı azaltmaq üçün təbii günəş enerjisindən istifadəyə önəm verilməlidir: "Məsələn, xarici ölkələrdə eyvanlarda şəxsi istifadə üçün solar panellər quraşdırılır. Hansı hissədən günəş yaxşı düşürsə, orada panellər yerləşdirilir. Həyət evi olan insanlar isə evlərinin damına quraşdırırlar. Ofislərdə isə binalarda olur. O səbəbdən tələbat artsa belə gücə düşmə zamanla azalır. İnsanlar dövlətin böyük panellər qurmasını gözləmirlər. Bu kimi panellər quraşdıran şirkətlər bir çox vergilərdən də azaddırlar. Belə olan halda bütün elektrik enerjisini günəş panellərindən alırlar".

İqtisadçının fikrincə, yayda tələbatımızı ödəməyə fokuslanıb, digər fəsillərdə elektrik enerjisindən gəlir qazanaraq kompensasiya edə bilərik: "Əgər özümüzü təmin edə bilmiriksə, bu, mənfi tendensiyadır. İyunun 24-də Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyası açıldı. Ölkəmizdə tələbat rekord həddədirsə, onu kənara satmaqdansa, ölkə içində tələbatı təmin etmək birinci vəzifə olmalıdır. Başqa ölkələrdən enerji idxalı da edə bilərik. Amma digər fəsillərdə tələbat daha aşağı olduqda qonşu ölkələrə enerji sataraq gəlir əldə etmiş olarıq. Sadəcə çalışmalıyıq ki, elektrik enerjisinə olan tələbatın artması böyük elektrik kəsintilərinə səbəb olmasın".



Murad Calalov

ELEKTROMOBİLLƏRLƏ BAĞLI ŞİKAYƏTLƏR ARTMAĞA BAŞLAYIB

# REKLAMI DA AZALIB, SATIŞI DA



Elektromobillərlə bağlı mövcud durum bəzi suallar yaradır. Həm təbliğatda, həm də satışda müəyyən durğunluq müşahidə edilir. Bəziləri artıq elektromobil mifinin sona çatdığı qənaətindədir. Ancaq mütəxəssislər belə düşünmürlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bir zamanlar elektrikli avtomobillər geniş təbliğ olunurdu. Avtomobil şirkətləri cəmiyyətin tanınmış simalarını reklam əməkdaşlığına cəlb edib, onların vasitəsilə bu avtomobilləri tərifləurdilər. Amma son dövrlərdə bu təbliğat səngiyib. Hətta tez-tez elektrikli avtomobillərdən şikayətlər eşidirik. Bu hansı anlama gəlir? Artıq elektromobil eyforiyasının başa çatdığını düşünmək olarmı?

### "BUNLAR ŞİŞİRDİLMİŞ RƏQƏMLƏRDİR"

Tanınmış texnobloqer Fərid Pərdəşünas da elektromobil istifadəçisidir. Onun sözlərinə görə, elektromobillərlə bağlı real problemlər mövcuddur: "Elektromobillərlə bağlı həm mənfi, həm müsbət cəhətdən informasiya çirkliliyi mövcuddur. Bəzi insanlar mənfi tərəfləri, bəziləri isə müsbət tərəfləri çox qabardır. Güzəştlərin olması insanlarda elektromobilə maraq yaratdı. Çünki qiymətləri münasibdir. Avtomobil brendləri maşını satanda onun getdiyi məsafəni vurğulayırlar. Tam dolu enerji ilə 500-700 km məsafə qət etmək olur. Amma bunlar şişirdilmiş rəqəmlərdir. Belə testlər avtomobilin ən ideal hava şəraitində bütün funksiyaları sönülü vəziyyətdə həyata keçirilir. Elektromobil istifadəçiləri o rəqəmləri il ərzində maksimum üç ya dörd dəfə görə bilər. Bu da istifadədən asılıdır. Mən 500 km məsafə qət edən elektromobil istifadəçisiyəm, amma onun mənə şəhər içində təqdim etdiyi performans 300-350 km-dir. Çin avtomobillərində isə bu rəqəmlər daha da aşağıdır. Elektromobildə əsas diqqət etməli olduğunuz məsələ sərfiyyatdır. Yəni avtomobiliniz 100 km məsafəyə nə qədər enerji sərf edir".


Fərid Pərdəşünas

F.Pərdəşünasın fikrincə, rayonlara tez-tez səfər edirsinizsə, maşınınız elektromobildirsə, problemlərlə üzləşə bilərsiniz.

### "STANSİYALARDA ENERJİ ÜÇ DƏFƏ BAHA SATILIR"

F.Pərdəşünas elektromobil almaq istəyənlərə məsləhətlərini də verdi: "Şəhər daxilində diqqət etməlisiniz ki, sizin iş yerinizdə, evinizdə enerji stansiyası varmı? Əks halda stansiyaya getdikdə bir saatdan da artıq müddət enerji doldurmaq üçün gözləyəcəksiniz. Əgər şarj stansiyanız yoxdursa, hər hansı məntəqədə doldurmaq sizin büdcənizə də ziyandır. Çünki sürətli enerji stansiyalarında enerji üç dəfə baha satılır. Əgər öz şarj stansiyanız olarsa, bu zaman digər avtomobillərlə müqayisədə qənaət etmiş olarsınız".

### "NARAZILIQLAR DAHA ÇOX İNFRASTRUKTURLA BAĞLIDIR"

Aparıcı, avtomobil bloqeri İlkin Həsəni isə deyir ki, problemlərə baxmayaraq, elektromobillərin müsbət cəhətləri çoxdur. İlk növbədə sükut, rahat sürüş və qənaətcil istismar xərcləri vurğulanmalıdır: "Bir ilə yaxındır elektromobil sürürəm və ən çox qiymətləndirdiyim şeylərdən biri benzin növbəsində vaxt itirməməyimdir. Həm də servisə getmək demək olar ki, unudulub. Yağ, filtr dəyişmək kimi ehtiyaclarım yoxdur. Amma elektromobillərdən narazılıq edənlər də var və bu, normaldır. Çünki bu, hələ formalaşmaqda olan bir sahədir. Ən çox eşitdiyim narazılıq qışda batareyanın tez boşalması, yükləmə stansiyalarının sayının az olması və bəzən gecikmələrlə dolmasıdır. Amma yeni modellər, xüsusilə istilik pompası olan avtomobillər bu problemi demək olar ki, aradan qaldırır. Narazılıqlar daha çox infrastrukturla bağlıdır, avtomobillə yox. Hesab edirəm ki, dövlət və özəl sektor birgə işləsə, bu problemlər 2-3 il içində xeyli dərəcədə aradan qalxacaq".

İ.Həsəninin sözlərinə görə, narazılıqlar heç də elektrikli avtomobil dövrünün sonu demək deyil. Əksinə, bu dövr yeni başlayır: "Hər yeni texnologiyada olduğu kimi, əvvəlcə böyük ümidlər olur, sonra insanlar real problemlərlə qarşılaşırlar. Amma bu o demək deyil ki, texnologiya sıradan çıxır. Əksinə, biz indi adaptasiya dövrünü yaşayırıq".

## "HİBRİD AVTOMOBİL İDEAL SEÇİMDİR"

İ.Həsəninin fikrincə, daha praktik insanlar hibrid avtomobilləri seçməlidirlər: "Əgər evində və ya yaşadığı binada yükləmə imkanı varsa və gündəlik yürüş məsafəsi 100–150 km-dən çox deyilsə, elektromobilə keçməyi tövsiyə edirəm. Qənaət və rahatlıq baxımından böyük fərq olacaq. Əgər rayonlara tez-tez səfər edirsinizsə və yükləmə vaxtı sizi narahat edirsə, o zaman hibrid avtomobil ideal seçimdir".

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası İctimai Birliyinin İdarə Heyətinin sədri Eyyub Əliyev də bildirdi ki, hazırda rəsmi dilerlər elektromobil reklamlarını azaldıblar: "Ölkəmizə avtomobillər həm rəsmi dilerlər vasitəsilə, həm də fiziki şəxslər tərəfindən gətirilir. Dilerlər alıcıya avtomobili necə istifadə etməli olduğunu izah edirlər. Belə olduqda vətəndaş o qədər də problemlə qarşılaşmır, çünki əvvəldən hər şeyi bilir. Amma bir çox vətəndaşlar rəsmi dilerə yox, fərdi satıcılara üz tuturlar. Bu səbəbdən rəsmi diler də əlavə xərc çəkib reklam etmək istəmir".


İlkin Həsəni

E.Əliyev bildirdi ki, insanlar hələ elektromobillərdən doymayıb. Sadəcə, hibrid avtomobillərə meyillənmə müşahidə edilir: "Güzəştlərin davam etməsi elektromobillərə tələbatı daha da artıracaq. Elektromobil istehsalçıları hər gün avtomobillərin inkişafı üçün işlər görürlər. Gələcəkdə problemlər aradan qalxmış olacaq".

## QƏNAƏTCİL, SAĞLAM, DAHA UCUZ

Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev düşünür ki, gələcək elektrikli avtomobillər üzərində qurulub: "Elektrikli avtomobil idarə edirsənsə, diqqətli olmalısan. Yanacaqla işləyən maşında da görəndə ki, yanacaq az qalıb, onu doldurmalısan. Elektromobillərdə də planını elə qurmalısan ki, yolda qalmayasan. Ümumi götürsək, elektromobillər qənaətcildir, sağlamlıq üçün faydalıdır və daha ucuz və komfortludur. Özüm üç ildir elektromobil istifadə edirəm. Puluma haradasa 70-80 faiz qənaət edirəm. Bu illər ərzində maşını cəmi bir dəfə ustaya aparmışam. Sadəcə, hazırda bizdə yükləmə məntəqələri azdır, olanların da bəziləri yararsızdır. Gələcəkdə ənənəvi avtomobil istifadəçilərinin sayı daha da azalacaq. Bazarda əsasən elektrik və hibrid avtomobillər olacaq".



# ŞƏKƏR XƏSTƏLƏRİNİN QİDA SEÇİMİ PROBLEMİ

Ölkəmizdə diabetik qida məhsullarının yerli istehsalı yoxdur. Bu məhsulların böyük əksəriyyəti idxal olunur. Ekspertlər qeyd edirlər ki, şəkər xəstələri bu məhsullardan istifadə edərkən bir sıra vacib məqamlara diqqət yetirməlidirlər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Azərbaycan Standartlaşdırma İnstitutu "Diabetik təbii meyvə şirələri" dövlət standartını ləğv edilməsi üçün ictimai müzakirəyə çıxarıb. Onun ləğv edilmə səbəbi isə həmin standart ilə istehsalın olmamasıdır. Bu müzakirə istehlakçılar, xüsusilə şəkərli diabet xəstələri arasında suallar doğurub. 2024-cü ildə qüvvəyə minmiş bu standartın istehsal olmaması səbəbindən ləğvi, bazarda bu kateqoriyaya daxil olan məhsulların keyfiyyəti və təhlükəsizliyi ilə bağlı narahatlıqları artırır.

Məlumdur ki, satışda şəkərli diabet xəstələri üçün kifayət qədər məhsullar var. Bəs diabet xəstələri üçün nəzərdə tutulan digər məhsulların təhlükəsizliyi necə təmin olunur? Şəkərli diabeti olan xəstələr onlar üçün nəzərdə tutulan məhsulları alarkən nələrə diqqət etməlidir?

**MEYVƏ DÜZGÜN SEÇİLDİKDƏ...**

İstehsal meneceri Sayat Quliyeva "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycanda bəzi diabetik dərmanların qablaşdırılması həyata keçirilir, lakin diabetik qida məhsullarının yerli istehsalı yoxdur. Bu məhsulların böyük əksəriyyəti idxal olunur. Onun sözlərinə görə, standartın ləğvi də məhz bu səbəblə, daxili istehsalın olmaması ilə əlaqələndirilir: "Hazır meyvə şirələrinin tərkibində qatılaşdırılmış və əlavə olunmuş şəkər miqdarı yüksək olduğundan şəkərli diabet xəstələri üçün tövsiyə edilmir. Meyvənin özü düzgün seçildikdə və porsiya ölçüsünə nəzarət olunduqda isə şəkərli diabet xəstələri üçün zərərli deyil, əksinə, faydalıdır. Əsas məsələ düzgün meyvə növlərinin seçilməsi və miqdarın nəzarətdə saxlanmasıdır. Meyvələrin tərkibindəki şəkər təbii fruktoza şəklindədir və yüksək miqdarda lif ehtiva edir. Bu liflər bağırsaqlarda şəkərin sorulmasını yavaşladaraq qanda şəkər səviyyəsinin ani yüksəlməsinin qarşısını alır. Hazır meyvə şirələrinin tərkibində qatılaşdırılmış və əlavə olunmuş şəkər miqdarı yüksək olduğundan şəkərli diabet xəstələri üçün tövsiyə edilmir. Diabetiklər üçün ən düzgün seçim meyvənin təzə formada istehlak edilməsidir. Eyni zamanda, meyvələrin qlisemik indeks və şəkər miqdarı baxımından tanınması da onların sağlam qidalanması üçün vacibdir".

## "Bu cür məhsullardan uzaq durmalıdırlar"

Ekspert vurğulayır ki, əgər insan şəkərli diabet xəstəsidirsə, bu cür məhsullardan tamamilə uzaq durmalıdır: "Həmçinin məhsulun üzərindəki qida dəyəri cədvəlində karbohidrat miqdarı da yoxlanmalıdır. Bu göstərici gündəlik normanı aşırsa, həmin məhsuldan imtina etmək lazımdır. Diabet xəstələri üçün gündəlik şəkər miqdarı təxminən üç qramdan çox olmamalıdır, lakin bu rəqəm də şəxsin səhhətinə uyğun fərdi şəkildə dəyərləndirilməlidir".

Mütəxəssis qeyd edir ki, bir çox hallarda diabetik məhsullarda şəkər əvəzinə kimyəvi tərkibli azpartam kimi maddələrdən istifadə olunur: "Azpartam şəkərdən təxminən 10 dəfə daha şirin dada malik olsa da, onun kimyəvi tərkibli olması uzunmüddətli istifadə zamanı qaraciyər və böyrək funksiyalarına mənfi təsir göstərə bilər. Bu səbəbdən bu cür maddələrin tərkibdə olub-olmadığına xüsusi diqqət yetirilməlidir. Həm evdə hazırlanan yeməklərdə, həm də hazır məhsullar alarkən qlisemik indeksi yüksək olmayan qidalara üstünlük verilməlidir. Məsələn, üzüm, nar, ərik kimi bəzi şirin meyvələrin qlisemik indeksi yüksək olduğu üçün şəkər xəstələrinə bu meyvələri ya çox az miqdarda, ya da ümumiyyətlə qəbul etməmək tövsiyə olunur. Şəkər xəstələri qəbul etdikləri qidaların keyfiyyətindən və mənşəyindən əmin olmalı, yalnız etibarlı mənbələrdən alınmış məhsullara üstünlük verməlidirlər".

## Diabetik şirələrin adi meyvə şirələrindən fərqi

Həmsöhbətimiz bildirir ki, diabetik meyvə şirələri adi meyvə şirələrindən fərqlənir. Çünki onlar şəkərsiz və qanda şəkər səviyyəsini artırmayan maddələrdən hazırlanır: "Bu məhsullarda şəkər əvəzedicisi kimi süni və ya təbii maddələrdən istifadə olunur: steviosid (stevia bitkisindən alınır), eritritol, sukraloza, aspartam və s. Lakin diabetik məhsullarda istifadə olunan süni dadlandırıcıların miqdarı çox olduqda, bu, insan orqanizminə mənfi təsir göstərə bilər. Məsələn, aspartam uzun müddət yüksək dozada qəbul edilərsə, mədə-bağırsaq problemləri, insulin müqavimətinin artması və hətta ürək-damar xəstəlikləri kimi ciddi fəsadlara səbəb olur".


Sayat Quliyeva

S.Quliyeva vurğulayır ki, günümüzdə diabetik, dietik, bioloji və təbii məhsulların istehlakı və istehsalı qarışıq vəziyyətdədir. Bu terminlərin istifadəsi böyük məsuliyyət tələb edir, xüsusilə "diabetik" anlayışında: "Ona görə də istehlakçılar mütləq aldıqları məhsulların etiketlərdə "Diabetik", "No sugar", "Sugar free" kimi ifadələrin olmasına və məhsulun qida dəyərinə diqqət etməlidirlər. Həmçinin istifadə etməzdən əvvəl müalicə həkimləri ilə məsləhətləşmək vacibdir".

**"İSTEHSALI DAYANDIRILIR, YA DA SATIŞDAN GERİ ÇAĞIRILIR"**

Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynovanı isə son dövrlərdə marketinq hiylələrindən istifadə olunaraq bəzən "diyetik", bəzən "pəhriz" və "diabetik" adı altında müxtəlif qidaların satışa çıxarılması narahat edir: "Bu məhsulların heç də hamısı 100 faiz zəmanətli deyil ki, üzərində yazıldığı kimi həqiqətən də faydalı, az yağlı və ya az şəkərlidir. Çox vaxt belə məhsullar normativ tələblərə cavab vermədiyi üçün ya istehsalı dayandırılır, ya da satışdan geri çağırılır. Bu səbəbdən şəkərli diabet xəstələri, ümumiyyətlə, istehlakçılar belə məhsulları alarkən xüsusilə diqqətli olmalıdırlar. Etiket oxumaq vərdişi formalaşdırılmalı, yalnız etibarlı və sertifikatlı məhsullara üstünlük verilməlidir. Məhsulun tərkibində fruktoza, qlükoza siropu, bal və ya digər şəkər növləri varsa, onların istifadəsində ehtiyatlı olmaq lazımdır".


Məhsəti Hüseynova

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
16 AVQUST ŞƏNBƏ 2025
www.kaspi.az

QARABAĞ 5–1 ŞKENDİYA




# “QARABAĞ” LİQA MƏRHƏLƏSİNİN BİR ADDIMLIĞINDA

**“Qarabağ” artıq Çempionlar Liqasının pley-off mərhələsinin daimi iştirakçısına çevrilib. Komanda dördüncü dəfə burada çıxış edəcək.**

“Qarabağ” Çempionlar Liqasının liqa mərhələsinə bir az da yaxınlaşdı. Ağdam klubu artıq pley-offdadır. Şimali Makedoniyada 1:0 üstün olan “atlılar” Bakıda “Şkendiya”nın daşını daş üstə qoymayaraq (5:1) buna nail oldu.

### MAKSİMAL NƏTİCƏ

Çempionlar Liqasında mübarizəyə II təsnifat mərhələsindən başlayan “Qarabağ” dörd oyunun hər birində qalib gəlib. Əvvəlcə İrlandiya “Şelburn”u ilə üz-üzə gələn komandamız oyunlarını “quru” hesabla bitirdi. Səfərdə üç cavabsız qolla üstün olan Qurban Qurbanovun yetirmələri evdə çox güc sərf etməyərək minimal hesablı qələbə ilə kifayətləndi. Növbəti rəqib olan Şimali Makedoniya çempionu “Şkendiya” daha güclü olsa da, bu komanda da “atlılar”a ciddi müqavimət göstərə bilmədi. Səfərdəki minimal hesablı qələbənin davamını komanda Bakıda 5:1 hesablı qələbə ilə yekunlaşdırdı. Ümumilikdə on qol vuran “Qarabağ” bu görüşlərdə cəmi bir dəfə qapısında qol görüb ki, bu da fərdi səhvdən qaynaqlandı.

### DÖRDÜNCÜ CƏHDDƏ KÖHNƏ TANIŞ

“Qarabağ” artıq Çempionlar Liqasının pley-off mərhələsinin daimi iştirakçısına çevrilib. Komanda dördüncü dəfə burada çıxış edəcək. Komanda ilk dəfə 2017/18 mövsümündə pley-offa yüksəlib və ilk cəhddəcə qrup mərhələsinə adlayıb. Həmin zaman ağdamlılar Danimarka “Kopenhagen”ini mübarizədən kənarlaşdırıb. Sonrakı iki cəhd uğursuz alınıb. Çempionumuz 2022/23 mövsümündə Çexiyanın “Viktoriya” (Plzen) klubu ilə görüşlərin yekununda minimal fərqlə yenilərək qitənin bir nömrəli klub turniri ilə vidalaşıb. Keçən il isə Xorvatiya “Dinamo”su (Zaqreb) ilə qarşılaşmalar uğursuz alınıb. Qurban Qurbanovun komandası dördüncü cəhddə səkkiz il əvvəlki uğuru təkrarlamaq niyyətindədir. Əslində bunun üçün yaxşı şans da var.



## “Ferentsvaroş”da nə dəyişib?

“Qarabağ” liqa mərhələsinin bir addımlığında Macarıstanın “Ferentsvaroş” klubu ilə üz-üzə gələcək. Əlbəttə, bu komanda həm “Şelburn”dan, həm “Şkendiya”dan daha təcrübəli və təhlükəlidir. Lakin potensial rəqiblər arasında ən münasibidir. Üstəlik, qətiyyən keçilməz deyil. Elə “Qarabağ” özü bunu daha əvvəl sübut etməyi bacarıb.

Komandalar Çempionlar Liqasının 2022/23 mövsümünün III təsnifat mərhələsində üz-üzə gəliblər. Bakıdakı 1:1 hesablı heç-heçədən sonra “Qarabağ” səfərdə rəqibini 3:1 məğlub edərək pley-offa adlayıb. İndi şanslar təxminən bərabər hesab edilir. Çünki artıq “Qarabağ” Avropada özünü daha çox təsdiq etməyi bacarıb.

Komandaların ilk qarşılaşmasından çox uzun müddət keçməsə də, hər iki cəbhədə ciddi dəyişikliklər var. “Qarabağ”la bağlı vəziyyət ümumən aydındır, ona görə daha çox qarşı tərəfə fokuslanacağıq. İlk növbədə “Ferentsvaroş”un baş məşqçisi artıq Stanislav Çerçesov yox, ötənlərin məşhur irlandiyalı futbolçusu Robbi Kindir. Əslində bu, “Qarabağ” üçün müsbət məqamdır. Çünki Çerçesovdan fərqli olaraq Kin bir o qədər də təcrübəli deyil. “Ferentsvaroş”a qədər onun baş məşqçilik karyerasında yalnız Təl-Əviv “Makkabi”sinə rast gəlinir. O, bu ilin yanvarından “Ferentsvaroş”u çalışdırır.

Komandanın heyətinə gəlincə, macarların oyunçu “arsenal”ı çox geniş və keyfiyyətlidir. Üç il əvvəllə müqayisədə o vaxt əsas heyət üzvləri olan Adama Traore və Kristian Zakariassen hələ də komandanın formasını geyinirlər. Lakin indi onlar bir o qədər də şans qazanmırlar. Baxmayaraq ki, 3.5 milyon avro dəyəri olan bu futbolçular komandanın ən bahalı oyunçuları sırasındadırlar. Komandanın əsas qol silahı Barnabas Varqadır. Macarıstan millisinin forvardı bu mövsüm Çempionlar Liqasında dörd oyunda dörd qol vurmağı bacarıb. “Ferentsvaroş”un ən dəyərli oyunçusu isə Məhəmməd Əbu Fanidir. İsrailli mərkəz yarımmüdafiəçisinin bazar qiyməti 4,5 milyon avrodur. Yeri gəlmişkən, “Qarabağ”ın sabiq futbolçusu Julio Romao “Ferentsvaroş”un oyunçusudur. Lakin o, bu mövsüm heç bir matçda heyətdə yer almayıb.



## “Qarabağ”ın hücumçu problemi

Əlbəttə, dörd oyuna on qol vuran komandanın hücum xəttindəki çatışmazlıqdan bəhs etmək qəribə görünə bilər. Lakin rəqiblərin kimliyi və oyunların ümumi təhlili göstərir ki, “atlılar”ın irəli xəttində axsaqlıq var. İnsafən, Nəriman Axundzadə pis çıxış etmir. Bununla belə, mütəxəssislərin qənaətincə, daha böyük hədəflər üçün o, kifayət etmir. Təkcə “Ferentsvaroş” nöqteyi-nəzərindən deyil, liqa mərhələsi baxımından yanaşdıqda bu, daha qabarıq gözə çarpır. Nərimana başqa alternativ isə, demək olar ki, yoxdur. Musa Qurbanlı ehtiyat hücumçu olsa da, çıxışı qənaətbəxş deyil. Marko Yankoviçin qayıdışı “Qarabağ” üçün olduqca müsbət məqamdır. Bu, Kadinin də əl-qolunu açacaq. Müdafiədə Sami Mmae özün doğrultmağa başlayır. Bircə hücumun sivri ucuna keyfiyyətli oyunçu transferi ilə daha böyük hədəflər uğrunda mübarizə aparmaq olar. İstənilən halda, “Ferentsvaroş” “Qarabağ”ın dişinə görə rəqibdir. Lakin nəzərə almaq lazımdır ki, komanda ən azı Avropa Liqasının liqa mərhələsində oynamağı təmin edib. Keçənilki uğursuzluqdan sonra çatışmazlıqlar üzərində daha ciddi işləmək və komandanın komplektləşdirilməsi prosesini sürətləndirmək lazımdır. İlk növbədə isə hücumçu məsələsi həll olunmalıdır.

